

Milli azadlıqdan şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

25 iyun 2026-cı il, cümə axşamı

№ 109 (7176)

Qiyməti 60 qəpik


## İslam həmrəyliyinin möhkəmləndirilməsi üçün əlimizdən gələni əsirgəməyəcəyik



Bax səh. 2

## İƏT Parlament İttifaqına sədrlik Azərbaycana keçib

Bax səh. 3

### Azərbaycan - Türkmənistan: Möhkəm təməl üzərində qurulan starteji münasibətlər

Azərbaycanın milli maraqlar üzərində qurulan və çoxvektorlu səciyyə daşıyan xarici siyasət kursunda regional əməkdaşlığın gücləndirilməsi xətti xüsusi yer tutur. Prezident İlham Əliyev dəfələrlə belə bir tezisi əsaslandırıb ki, istənilən dövlətin uğurlu inkişafı ilk növbədə qonşu ölkələrlə xoş mərama və qarşılıqlı maraqlara əsaslanan münasibətlərin qurulmasımından asılıdır. Bu kontekstdə Azərbaycanla Xəzərin digər sahilində yerləşən Türkmənistan Respublikası arasında formalaşan dostluq və əməkdaşlıq əlaqələri xüsusi diqqət çəkir. Bu günlərdə Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun Azərbaycana baş tutan dövlət səfəri çərçivəsində keçirilən görüşlərdə aparılan müzakirələr, liderlərin mətbuata bəyanatlarında ifadə etdikləri fikirlər bir daha təsdiqləyir ki, ikitərəfli gündəlik kifayət qədər geniş əhatə dairəsinə malikdir.

Prezident İlham Əliyevin mətbuata bəyanatında vurğuladığı kimi, səfər çərçivəsində keçirilən görüşlərdə ikitərəfli əməkdaşlığın bir çox məsələləri müzakirə edilib və əməkdaşlığın gələcək inkişafı yolları müəyyənləşdirilib.

Müstəqil Azərbaycanla müstəqil Türkmənistanı yaxınlaşdıran yalnız geosiyasi maraqlar, bugünkü reallıqlar və ortaq coğrafiya deyildir. İki ölkəni bir-birinə yaxın edən amillər tarixin dərin qatlarına bağlıdır...

Bax səh. 2



### “Heydər Əliyev irsi: keçmişdən gələcəyə memarlıq körpüsü”

### “Connectivity Agenda Platform”u istifadəyə verilib

Bax səh. 5

### Çində “Yay Davos”u ...

Bax səh. 7

### Etibarlı maliyyə tərəfdaşı

İslam İnkişaf Bankı (İİB) Qrupunun İllik Toplantıları çərçivəsində iqtisadiyyat naziri Mikayıl Cabbarov Qara Dəniz Ticarət və İnkişaf Bankının (QDTİB) prezidenti Serhat Köksal ilə görüşüb. Görüşdə Azərbaycan ilə QDTİB arasında əməkdaşlığın genişləndirilməsi perspektivləri müzakirə olunub. Tərəflər bankın ölkəmizdə həyata keçirilməsi nəzərdə tutulan layihələrdə iştirakı, o cümlədən dövlət-özəl tərəfdaşlığı təşəbbüslərinə cəlb olunması və müvafiq maliyyə alətlərindən istifadə imkanlarını nəzərdən keçiriblər. Bildirilib ki, QDTİB ilə əməkdaşlığın inkişaf etdirilməsi Azərbaycanın iqtisadi prioritetlərinə uyğun layihələrin dəstəklənməsi, investisiya imkanlarının genişləndirilməsi və dayanıqlı inkişaf məqsədlərinə nail olunması baxımından mühüm əhəmiyyət daşıyır.

QDTİB heyəti Azərbaycanda potensial layihələrdə iştirakını artırmaq niyyətini ifadə edib. S. Köksal dünyada baş verən geoiqtisadi mürəkkəb vəziyyətə baxmayaraq, bankın maliyyə-investisiya siyasətinə sadiq qaldığını xatırladıb. Orta Müddətli Strategiya əsasında maliyyələşmənin davam etdiriləcəyi və Biznes planının ikinci mərhələsinə başlanılacağı qeyd edilib. Qara Dəniz Bankının nəqliyyat dəhlizlərinin açılması və Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin bərpasında, nəqliyyat və logistika infrastrukturunun inkişafına sərmayə yatıracağı bəyan olunub.

Qara Dəniz Bankının Rəhbərlər Şurası tərəfindən ortamüddətli strategiya sənədi, 2026-2027-ci illər üzrə biznes planı, cari kredit portfeli və maliyyələşdirmə mənbələri, habelə üzv ölkələr arasında...

Bax səh. 4

## Fransadan gecikmiş etiraf




Bax səh. 6

# İslam həmrəyliyinin möhkəmləndirilməsi üçün əlimizdən gələni əsirgəməyəcəyik

## Prezident İlham Əliyev İƏT üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci Sessiyasının iştirakçılarına müraciət ünvanlayıb



Prezident İlham Əliyev İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci Sessiyasının iştirakçılarına müraciət ünvanlayıb. Müraciətdə bildirilib: "Sizi İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci Sessiyasında səmimi-qəlbdən salamlayıram. Azərbaycana xoş gəlmisiniz!

Qardaş ölkələrin qanunverici orqanlarını birləşdirən bu mötəbər platforma parlamentlərarası əməkdaşlığın gücləndirilməsi, siyasi, iqtisadi, sosial və humanitar sahələrdə əlaqələrin inkişaf etdirilməsinə xidmət etməklə yanaşı, İslam həmrəyliyinin möhkəmləndirilməsini təmin edən vacib mexanizmlərdən biri kimi xüsusi əhəmiyyət kəsb edir".

Müraciətdə qeyd olunub ki, çu il Azərbaycan Respublikasının İslam Əməkdaşlıq Təşkilatına (İƏT) üzv olmasından 35 il ötür. İƏT Azərbaycanın müstəqilliyinin bərpasından sonra qoşulduğu ilk beynəlxalq təşkilatlardandır. "Qürurla qeyd edə bilərik ki, bu illər ərzində ölkəmiz İslam həmrəyliyinin gücləndirilməsinə töhfə vermiş, İƏT-in fəaliyyətində təşəbbüskar və məsuliyyətli rol oynamış, məqsəd və prinsiplərinə sadiq qalmış, beynəlxalq müstəvidə nüfuzunun artırılmasında fəal iştirak etmişdir. Azərbaycan üzv dövlətlərlə ikitərəfli əsasda da möhkəm dostluq və qardaşlıq münasibətlərinə söykənən çoxşaxəli əməkdaşlıq əlaqələri qurmuşdur. Biz də, öz növbəmizdə, İƏT-in ardıcıl dəstəyini daim hiss etmişik. İƏT Ermənistanın Azərbaycana qarşı 30 ilə yaxın davam edən təcavüzü zamanı və postmüharibə dövründə qətiyyətli mövqe nümayiş etdirərək, işğalı şiddətlə qınayan, Azərbaycanın haqq işini, suverenliyini və ərazi bütövlüyünü dəstəkləyən, azad olunmuş ərazilərimizdə bərpa və quruculuq işlərini alqışlayan qətnamələr və bəyanatlar qəbul etmişdir. Ermənistanın Azərbaycana qarşı təcavüzünə dair İƏT çərçivəsində Təmas Qrupunun fəaliyyətini xüsusilə vurğulamaq istərdim. Biz qardaş ölkələrin bu münasibətini yüksək qiymətləndiririk. Təəssüf ki, işğal dövründə Ermənistan tərəfindən urbisid və kultursidə məruz qalmış şəhər və kəndlərimizdə bəşəri əhəmiyyətə malik məscidlər və çoxəsrlik İslam memarlığı abidələri qəsdən dağıdılmış və talan olunmuşdur. 67 məsciddən 65-i məhv edilmiş, qalan məscidlərə isə ciddi zərər vurulmuşdur. Bu müqəddəs yerlərin tövlə kimi istifadə olunması və orada dinimizdə haram sayılan heyvanların saxlanılması təkcə azərbaycanlıların deyil, bütün dünya müsəlmanlarının hisslərinə təhqirdir. ICESCO və İƏT-in Müstəqil Daimi İnsan Hüquqları Komissiyası bu vandalizm aktlarının işğaldan azad edilmiş ərazilərimizə təşkil etdiyi missiyaları zamanı əyani şahidi olmuşdur", - deyə vurğulanan müraciətdə qeyd edilib ki, bu gün işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı yenidənqurma işləri çərçivəsində dağıdılmış dini ocaqlarımız tarixi görkəmi nəzərə alınmaqla bərpa edilir, yeni məscidlər inşa edilir, minarələrdən uzun illərdən sonra yenidən azan sədaları ucalır: "Torpaqlarımızda İslam mədəni irsinə qarşı törədilmiş bu cinayətlər şübhəsiz ki, islamofobiyanın açıq-aydın təzahürüdür. Bu gün dünyada müsəlmanlara qarşı nifrətin aşılanması, İslam mədəni irsinin hədəfə alınması və İslam dəyərlərinin təhqir olunması geniş vüsət almışdır. Müqəddəs kitabımız "Qurani-Kərim"in yandırılması, Məhəmməd Peyğəmbərin (s.ə.s) karikaturalarının nəşr edilməsi heç bir halda ifadə azadlığı ilə əsaslandırıla bilməz və tamamilə qəbuledilməzdir. İslamofobiya yalnız müsəlmanlara qarşı dözümsüzlük halı deyil, qarşılıqlı anlaşmaya və dinc birgəyaşayışa təhdid yaradan təhlükəli tendensiyadır. Məyusedici haldır ki, Qərbdə bəzi siyasi dairələr, Avropa Parlamenti və Avropa Şurası Parlament Assambleyası kimi beynəlxalq təsisatlar anti-İslam əhvali-ruhiyyəsini təlqin edərək, İslamı ekstremizm və terrorizm ilə eyniləşdirməyə, dinimizə qarşı qərəzli təsəvvür yaratmağa və onu təhlükə mənbəyi kimi qələmə verməyə cəhdlər göstərir".

Bildirilib ki, islamofobiya ilə mübarizəyə beynəlxalq diqqətin daha da artırılması məqsədilə ölkəmizdə bu mövzuya həsr olunmuş beynəlxalq konfranslar təşkil edilir. İslamofobiyanın narahatedici şəkildə getdikcə yayıldığı bir dövrdə Azərbaycanın bu konfranslara ev sahibliyi etməsi dinlərarası və mədəniyyətlərarası dialoqun təşviqi və dinimizlə bağlı stereotiplərin aradan qaldırılması baxımından böyük əhəmiyyət kəsb edir: "Milli-mənəvi dəyərlərimizin tərkib hissəsi olan və dünyada milyardlarla insan üçün mənəvi dayaq və bələdçi rolunu oynayan İslam dəyərlərinin qorunmasına Azərbaycanda həmişə böyük önəm verilmişdir. Biz İslamın həmrəylik və qarşılıqlı hörmət prinsiplərinin təbliği istiqamətində müxtəlif təşəbbüslərlə çıxış edir, mütəmadi olaraq İƏT və onun qurumlarının tədbirlərinə ev sahibliyi edirik. İslam sivilizasiyasının zəngin mədəni-mənəvi irsini təcəssüm etdirən Bakı, Naxçıvan və Şuşa şəhərləri müxtəlif illərdə İslam dünyasının mədəniyyət paytaxtı adına layiq görülmüşdür. 2017-ci ildə Azərbaycanda elan olunmuş "İslam Həmrəyliyi İli" çərçivəsində 54 ölkənin iştirakı ilə Bakıda IV İslam Həmrəyliyi Oyunları keçirilmişdir. Bir neçə gün öncə Bakıda müsəlman ölkələrinin dayanıqlı rifahı naminə regional inteqrasiya mövzusuna həsr olunmuş İslam İnkişaf Bankı Qrupunun 2026-cı il üzrə İllik Toplantıları uğurla təşkil edilmişdir. 2027-ci ildə Azərbaycanda İslam Zirvə Konfransının 16-cı Sessiyası keçiriləcək və ölkəmiz İƏT-də Sədrliyi öz üzərinə götürəcək. Sədrliyimiz dövründə üzv dövlətlərin ümumi maraqlarının təşviqi, təşkilat çərçivəsində əməkdaşlığın dərinləşməsi, İslam həmrəyliyinin möhkəmləndirilməsi və böyük gücə çevrilməsi məqsədilə birgə səylərin səfərbər olunması üçün əlimizdən gələni əsirgəməyəcəyik".

Müraciətdə qeyd olunub ki, hazırkı sessiyanın "Parlament əməkdaşlığı vasitəsilə İƏT üzvü olan dövlətlərdə dayanıqlı və inklüziv iqtisadi inkişafın təşviqi" mövzusuna həsr olunması Parlament İttifaqının üzv ölkələrinin tərəqqisi üçün ortaq çağırışlara birgə həll yolları tapmaq əzmini nümayiş etdirir: "Əminəm ki, sessiya çərçivəsində irəli sürülən faydalı təşəbbüslər qardaş xalqlarımızın rifahına töhfə verəcək, ölkələrimiz arasında yeni əməkdaşlıq imkanlarının yaranmasına xidmət edəcək".

# Azərbaycan-Türkiyə birliyinin və qardaşlığının nümunəsi

## Prezident İlham Əliyev Türkiyə BMM-i sədrinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 24-də Türkiyə Böyük Millət Məclisinin (TBMM) sədri Numan Kurtulmuşun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı TBMM sədrinin İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci Sessiyasında iştirakının önəminə toxunub.

Gələcəkdə ölkəmizdə İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində digər tədbirlərin də keçiriləcəyini deyən Prezident İlham Əliyev İslam ölkələri arasında əlaqələri daha da genişləndirməyin əhəmiyyətini vurğulanıb.

Qəbula və İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci Sessiyasının yüksək səviyyədə təşkilinə görə minnətdarlıq edən Numan Kurtulmuş Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırıb.



Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirib, onun da salamlarını Prezident Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş edib.

Qonaq Bakıda keçirilən tədbirin İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində tərəfdaşlığın genişləndirilməsi baxımından əhəmiyyətini vurğulayaraq, dövlətimizin başçısının tədbir iştirakçılarına ünvanlandığı müraciətin zəngin məzmunlu olduğunu deyib.

Söhbət zamanı Şuşa Bəyannaməsinin əhəmiyyətinə toxunularaq, ölkələrimiz arasında qardaşlıq və müttəfiqlik münasibətlərinin bütün istiqamətlərdə, o cümlədən parlamentlərarası sahədə uğurlu inkişafı qeyd edildi, dünyada Azərbaycan-Türkiyə birliyinin və qardaşlığının nümunəsinin olmadığı bildirilib və bu, birgə sərvətimiz kimi qiymətləndirilib. Ölkələrimiz arasında dostluğun və qardaşlığın Cənubi Qafqaz regionunda sülh və təhlükəsizliyin təmin edilməsində mühüm amil olduğu vurğulanıb.

Görüşdə qanunverici orqanlarımız arasında mövcud əməkdaşlıq və onun daha da genişləndirilməsinin perspektivləri müzakirə olunub.

# Azərbaycan-İran münasibətləri uğurla inkişaf edir

## Prezident İlham Əliyev İran İslam Şurası Məclisinin sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 24-də İran İslam Şurası Məclisinin sədri Məhəmməd Baqir Qalibafın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev son vaxtlar qardaş İran xalqının çox böyük əziyyətlər çəkdiyini vurğuladı, müharibədə həlak olanlara bir daha Allahdan rəhmət diləyib.

Müharibə dövründə Azərbaycan xalqının və dövlətinin İran xalqı və dövlətinin yanında olduğunu deyən Prezident İlham Əliyev özünün İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianla telefonla danışıqlarını, həmçinin müxtəlif səviyyələrdə digər təmasları və həmrəylik nümunələrini bunun əyani göstəricisi kimi qiymətləndirib.

Müharibənin dayandırılmasının Azərbaycan tərəfindən sevinc hissi ilə qarşılandığını vurğulayan dövlətimizin başçısı bununla bağlı ölkəmiz tərəfindən dərhal rəsmi bəyanatın verildiyini xatırlayıb.

"Arzu edirəm ki, bölgədə heç bir müharibə olmasın", - deyən Prezident İlham Əliyev həm Azərbaycanın, həm də İranın vaxtilə müharibələrdən əziyyət çəkdiklərini qeyd edib.

Məhəmməd Baqir Qalibafın ölkəmizə əvvəlki səfərini məmnunluqla xatırlayan dövlətimizin başçısı onun İslam Əməkdaşlıq Təşkilatının (İƏT) üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci Sessiyasında iştirakının əhəmiyyətinə toxunub.

Prezident İlham Əliyev bu tədbirin İslam həmrəyliyinin inkişafına töhfə verəcəyinə ümidvarlığını bildirərək, gələn il ölkəmizin İƏT-in Zirvə Görüşünə ev sahibliyi edəcəyini deyib və bununla bağlı artıq hazırlıq işlərinin başlanıldığını qeyd edib.

Prezident İlham Əliyev Məhəmməd Baqir Qalibafın səfərinin, eyni zamanda, ikitərəfli gündəliyimizlə bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan yaradacağını vurğulayıb. Dövlətimizin başçısı Azərbaycan-İran münasibətlərinin uğurlu inkişafına da toxunub.

Prezident İlham Əliyevlə görüşdən məmnunluğunu bildirən qonaq İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianın salamlarını dövlətimizin başçısına çatdırıb. Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirib, onun da salamlarını Məsud Pezeşkiana çatdırmağı xahiş edib.

Məhəmməd Baqir Qalibaf İranın çətin günlərində Prezident İlham Əliyev, Azərbaycan dövləti və xalqı tərəfindən göstərilən dəstəyə görə minnətdarlığını bildirib. Qonaq, eyni zamanda, İranın ölkəmizdəki səfirliyinə gələrək, İran İslam Respublikasının Ali Rəhbəri Ayətullah Seyid Əli Xameneinin və bir çox mülki şəxsin həlak olması ilə əlaqədar başsağlığı verməsinə, həmçinin Ayətullah Seyid Müctəba Hüseyni Xameneiyə İran İslam Respublikasının Ali Rəhbəri vəzifəsinə seçilməsi münasibətilə göndərdiyi təbrik məktubuna görə dövlətimizin başçısına təşəkkür edib.

Müharibənin böyük dərd və faciə olduğunu deyən qonaq həmin dövrdə ölkəmizin İranla mehriban qonşuluq münasibətlərinə sadiq qaldığını, humanitar yardımını əsirgəmədiyini, Azərbaycan xalqının İranın yanında olduğunu vurğulayıb və qeyd edib ki, bu, İran xalqının yaddaşında əbədi qalacaq.

Azərbaycanla İranın çətin günlərdə də daim bir-birinin yanında olduqlarını deyən Məhəmməd Baqir Qalibaf bunu ölkələrimizin birliyinin və həmrəyliyinin daha bir nümunəsi kimi qiymətləndirib. Qonaq bu müharibənin, eyni zamanda, İrana müsəlman ölkələri ilə təmasların nə dərəcədə vacib olduğunu göstərdiyini bildirib. Məhəmməd Baqir Qalibaf qeyd edib ki, İran müharibə dövründə dostunu və düşmənini tanıyıb. Bu xüsusda dost ölkə kimi Azərbaycan İranın yanında olub.

Söhbət zamanı Azərbaycan-İran əlaqələrinin gələcəkdə daha da dinamik inkişafına əminlik ifadə olunub, Ağbənd-Kələlə körpüsünün tikintisinin artıq başa çatdırıldığı və İran ərazisindən keçən Araz dəhlizinin də regionda nəqliyyat imkanlarının artırılmasına xidmət edəcəyi məmnunluqla vurğulanıb.

Görüşdə ikitərəfli əlaqələrimizin perspektivləri, o cümlədən parlamentlərarası əməkdaşlıqla bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb, hökumətlərarası komissiyanın fəaliyyətinə toxunulub.

# Azərbaycan - Türkmənistan: Möhkəm təməl üzərində qurulan starteji münasibətlər



Azərbaycanın milli maraqlar üzərində qurulan və çoxvektorlu səciyyə daşıyan xarici siyasət kursunda regional əməkdaşlığın gücləndirilməsi xətti xüsusi yer tutur. Prezident İlham Əliyev dəfələrlə belə bir tezisi əsaslandırıb ki, istənilən dövlətin uğurlu inkişafı ilk növbədə qonşu ölkələrlə xoş mərama və qarşılıqlı maraqlara əsaslanan münasibətlərin qurulmasından asılıdır. Bu kontekstdə Azərbaycanla Xəzərin digər sahilində yerləşən Türkmənistan Respublikası arasında formalaşan dostluq və əməkdaşlıq əlaqələri xüsusi diqqət çəkir. Bu günlərdə Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun Azərbaycana baş tutan dövlət səfəri çərçivəsində keçirilən görüşlərdə aparılan müzakirələr, liderlərin mətbuata bəyanatlarında ifadə etdikləri fikirlər bir daha təsdiqləyir ki, ikitərəfli gündəlik kifayət qədər geniş əhatə dairəsinə malikdir.

Prezident İlham Əliyevin mətbuata bəyanatında vurğuladığı kimi, səfər çərçivəsində keçirilən görüşlərdə ikitərəfli əməkdaşlığın bir çox məsələləri müzakirə edilib və əməkdaşlığın gələcək inkişafı yolları müəyyənləşdirilib.

**Azərbaycan və türkmən xalqlarını tarix, mədəniyyət və etnik köklər birləşdirir**

Müstəqil Azərbaycanla müstəqil Türkmənistanı yaxınlaşdıran yalnız geosiyasi maraqlar, bugünkü reallıqlar və ortaq coğrafiya deyildir. İki ölkəni bir-birinə yaxın edən amillər tarixin dərin qatlarına bağlıdır. Həm Azərbaycan xalqı, həm də türkmən xalqı ortaq tarixi, mədəniyyəti, milli-mənəvi dəyərləri bölüşürlər. Təsadüfi deyil ki, Türkmənistanla Azərbaycanın münasibətlərinə iki ölkə arasında mədəni-humanitar sahədə əməkdaşlıq xüsusi bir rəng qatır. İki ölkənin yazıçılarının, şairlərinin, mədəniyyət xadimlərinin görüşləri bir qayda olaraq anşlaqla keçir və yaddaşlarda silinməz izlər buraxır. Türkmənistanda Azərbaycan mədəniyyəti geniş şəkildə təbliğ olunur. Öz növbəsində Azərbaycanda da zəngin türkmən mədəniyyətinə böyük maraq var. Bakıda Türkmənistan şairi Məhtumqulu Fraqinin yaradıcılığına həsr olunan konfrans keçirilib. Bütün bu faktlardan da göründüyü kimi, iki ölkəni və iki xalqı bir araya gətirən, yaxınlaşdıran dəyərlər, tarixi-mədəni bağlantılar kifayət qədər zəngindir. Dil oxşarlığını da bura əlavə edək. Tarixdən gələn belə dərin oxşarlıq hər iki ölkənin və xalqın böyük sərvətidir. Prezident İlham Əliyevin mətbuata bəyanatında vurğuladığı kimi, münasibətlərimiz möhkəm təməl - tarixi bağlar, mədəni əlaqələr və mənəvi əlaqələr üzərində qurulub. "Biz müntəzəm olaraq yaradıcı kollektivlərin çıxışlarını təşkil edirik. Elə bu yaxınlarda, bu ayın əvvəlində həm Aşqabadda, həm də Arkadağda Azərbaycan Mədəniyyəti Günləri keçirildi. Keçən il isə Türkmənistanın mədəniyyət xadimləri həm Bakıda, həm də Gəncədə keçirilən Mədəniyyət Günlərində bizi ziyarət etdilər... Onu da qeyd etməliyəm ki, Bakı və Aşqabad Arkadağ və Füzuli kimi, qardaş şəhərlərdir. Bütün bunlar bizim birliyimizin nümayişidir".

**Siyasi dialoqun yüksək dinamikası**

Bu gün Azərbaycanla Türkmənistan arasında qarşılıqlı münasibətlərin davamlı olaraq genişlənməsi ilk növbədə iki ölkə arasında siyasi dialoqun yüksək dinamikasından qaynaqlanır. Bu amilə xüsusi diqqət çəkən Prezident İlham Əliyev bildirib ki, siyasi qarşılıqlı fəaliyyət olmasaydı, heç bir coğrafi şərait səylərimizi birləşdirməyə imkan verməzdi.

İki Xəzəryanı dövlət 2017-ci ildə imzalanmış "Azərbaycan Respublikası ilə Türkmənistan arasında Strateji tərəfdaşlıq haqqında Bəyannamə" ilə qarşılıqlı münasibətlərini keyfiyyətcə yeni, daha yüksək müstəviyə qaldırıb. Burada liderlər arasında baş tutan davamlı təmaslar, qarşılıqlı etimad mühüm rol oynayır. Son illərdə yüksəksəviyyəli qarşılıqlı səfərlərin intensivliyi də xüsusi diqqət çəkir. Prezident İlham Əliyev tərəfindən Türkmənistana həyata keçirilən 2 rəsmi və 5 işgüzar səfər, eləcə də onun 2025-ci il avqustun 22-də Türkmənbaşı şəhərində Azərbaycan, Türkmənistan və Özbəkistan arasında keçirilən yüksəksəviyyəli görüşdə iştirakı Bakının bu istiqamətə verdiyi önəmin göstəricisidir.

Türkmənistan tərəfi də eyni intensivliklə qarşılıqlı münasibətlərə töhfə verir. 2023-cü ildə Sərdar Berdiməhəmmədovun Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə Görüşündə iştirak etmək üçün Bakıya səfəri, eləcə də Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədovun 2025-ci ildə Qəbələdə keçirilən sammitdə iştirakı iki ölkə arasında strateji tərəfdaşlığın dinamik inkişafını təsdiqləyən mühüm hadisələrdəndir.

Azərbaycanla Türkmənistanın çoxtərəfli platformada daim bir-birinə dəstək nümayiş etdirmələri də yaxşı nümunədir. Hər iki ölkə BMT, İKT, MDB və digər beynəlxalq qurumlar çərçivəsində bir qayda olaraq konstruktiv mövqe ortaya qoyurlar və müxtəlif məsələlərdə bir-birlərinə dəstək verirlər. Bu məqamda vurğulamaq yerinə düşər ki, Azərbaycan Türkmənistanın bitərəflik statusunu dəstəkləyən ilk ölkələrdən biridir.

İki ölkə arasında hüquqi bazanın davamlı olaraq möhkəmləndirilməsi qarşılıqlı əlaqələrin genişlənməsinə güclü təminatlar verir. İndiyədək müxtəlif sahələri əhatə edən 108 ikitərəfli sənəd imzalanmışdı. Son səfər çərçivəsində mübadilə edilən yeni 12 sənədlə bu hüquqi baza daha da genişləndirilib. Eyni zamanda, Prezident İlham Əliyev və Prezident Sərdar Berdiməhəmmədov prezidentlərin Birgə Bəyanatını imzalayıblar.

**İqtisadi əməkdaşlığın mühüm seqmenti - nəqliyyat və logistika imkanlarının genişlənməsi**

İki dost ölkə arasında siyasi dialoqun yüksək səviyyəsinə adekvat olaraq iqtisadi sahədə əməkdaşlıq da davamlı olaraq genişlənir. 2025-ci ildə tərəflər arasında ticarət dövriyyəsinin ümumi dəyəri 208,39 milyon dollar təşkil edib. Nəqliyyat və logistika imkanlarının genişlənməsi isə Azərbaycanla Türkmənistan arasında iqtisadi əməkdaşlığın çox mühüm bir seqmentini təşkil edir. Azərbaycanın ərazisindən keçməklə Orta Asiya regionuna da çıxış imkanlarına malik Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizlərinin yaradılması istiqamətində həyata keçirilən layihələrin önəmi kifayət qədər böyükdür. Azərbaycan Türkmənistanın da böyük maraq göstərdiyi hər iki dəhlizin funksionallığının artırılmasında fəal iştirak edir. Regionun nəqliyyat-tranzit potensialından səmərəli istifadə edilməsi baxımından respublikamızın təşəbbüsü, güclü siyasi iradəsi və böyük maliyyə dəstəyi ilə inşa olunan Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin və Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının əhəmiyyəti kifayət qədər böyükdür. Bu gün hər iki infrastruktur obyekti Azərbaycanla yanaşı, region dövlətlərinin, o cümlədən də Türkmənistanın tranzit imkanlarının artmasına öz töhfəsini verir. 2025-ci ilin yekunlarına görə, iki ölkə üzərindən keçən tranzit yüklərin həcmi 15 faiz artaraq 2,344 tona çatıb.

***Mübariz ABDULLAYEV***

# İƏT Parlament İttifaqına sədrlik Azərbaycana keçib

## Bakıda təşkilata üzv dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci sessiyasının açılışı olub

İyunun 24-də Bakıda İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı (İƏTPİ) Konfransının 20-ci sessiyasının açılış mərasimi olub. İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqının sədrliyi İndoneziyadan Azərbaycana keçib.

Mərasimdə əvvəlcə Milli Məclisin sədri Sahibə Qafarova Azərbaycan Prezidenti İlham Əliyevin İƏTPİ Konfransının 20-ci sessiyasının iştirakçılarına müraciətini oxuyub.



**Azərbaycan İslam dünyası ilə həmrəyliyə sadiqdir**

Sonra çıxış edən spiker Sahibə Qafarova bildirib ki, Azərbaycan parlamenti İƏTPİ-nin sədrliyini öz üzərinə götürərək, İttifaqın prinsiplərinin, məqsədlərinin və ortaq dəyərlərinin inkişaf etdirilməsinə tam sədaqətlə yanaşır. O diqqətə çatdırıb ki, Milli Məclisin İƏTPİ-yə sədrliyi Azərbaycanın İslam dünyası ilə həmrəyliyin və sıx əlaqələrin möhkəmləndirilməsinə olan sadiqliyini əks etdirir. Azərbaycan Prezidenti İlham Əliyevin bildirdiyi kimi, müsəlman ölkələri ilə həm ikitərəfli, həm də ortaq təşkilatlarımız çərçivəsində münasibətlərin inkişaf etdirilməsi Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindən biridir.

Çıxışda qeyd olunub ki, İslam Əməkdaşlıq Təşkilatı və onun üzv dövlətləri ərazilərimizin işğalı dövründə, eləcə də münaqişədən sonrakı dövrdə Azərbaycanla həmrəyliklərini həmişə ifadə ediblər. Son 30 ildə İƏT və İƏTPİ tərəfindən erməni təcavüzünü qınayan, Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü dəstəkləyən 100-dən artıq qərar və qətnamə qəbul edilib.







Azərbaycanın haqlı mövqeyinə daimi dəstəklərinə görə üzv ölkələrə və parlamentlərə minnətdarlığını bildirən Milli Məclisin sədri diqqətə çatdırıb ki, İslam həmrəyliyi prinsiplərini yüksək qiymətləndirən ölkəmiz onun təşviqində və daha da möhkəmləndirilməsində fəal iştirak edir. Azərbaycan İƏT Gənclər Forumunun və İƏT Əmək Mərkəzinin yaradılması kimi müxtəlif təşəbbüslər irəli sürüb və dəfələrlə müxtəlif tədbirlər üçün ev sahibi ölkə kimi seçilib.

Spiker deyib ki, Azərbaycan İslam mədəniyyətini təşviq edən və İslamın sülh və mərhəmət dini kimi həqiqi mahiyyətini nümayiş etdirən çoxsaylı tədbirlər təşkil edib və təşəbbüslər irəli sürüb. Azərbaycanın beynəlxalq hüquqa və müvafiq BMT qətnamələrinə uyğun olaraq, Əl-Qüds Əş-Şərifin Fələstin Dövlətinin paytaxtı olmaqla, İsrail-Fələstin münaqişəsinin həlli üçün iki dövlət həllini qəti şəkildə dəstəklədiyini deyən Sahibə Qafarova vurğulayıb ki, bu mövqe ölkəmizin BMT, İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı da daxil olmaqla, beynəlxalq təşkilatlardakı fəaliyyətində də öz əksini tapır. Onun sözlərinə görə, eyni mövqe Azərbaycan parlamenti tərəfindən də həyata keçirilir: "Milli Məclisin 2024-2026-cı illərdə Asiya Parlament Assambleyasına 2 illik sədrliyi, eləcə də Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinə davam edən sədrliyi dövründə Fələstin məsələsi həmişə gündəlikdə qalıb və yekun bəyannamələrdə və qərarlarda lazımi qaydada əks olunub. Son illər ərzində ölkəmiz Fələstin xalqının humanitar ehtiyaclarını qarşılamaq üçün dəfələrlə humanitar və maliyyə yardımı göstərib və bu dəstəyini davam etdirəcək".

**İslam dünyasının birliyinə ehtiyac var**

Milli Məclisin sədri bildirib ki, zəngin tarixinə və mədəni irsinə, böyük təbii və insan resurslarına baxmayaraq, bu gün İslam dünyası hələ də həllini gözləyən ciddi çətinliklərlə üzləşir. Yoxsulluq, sosial və iqtisadi bərabərsizliklər, silahlı münaqişələr, humanitar böhranlar, terrorizm və ekstremizm davamlı inkişaf səylərinə ağır şəkildə təsir edir və onları məhdudlaşdırır. Bu çətinlikləri aradan qaldırmaq və potensialını tam həyata keçirmək üçün İslam dünyasının sülh, tolerantlıq, harmoniya və ədalət kimi əbədi İslam dəyərlərinə uyğun olaraq birlik və həmrəyliyə ehtiyac duyduğunu deyən Sahibə Qafarovanın sözlərinə görə, getdikcə daha mürəkkəb və qarşılıqlı əlaqəli olan bir dünyada müsəlman ölkələri üçün birgə fəaliyyət göstərmək, bir-birinə dəstək olmaq və ortaq məqsədlər uğrunda çalışmaq heç vaxt bu qədər vacib olmayıb.

Çıxışda qeyd olunub ki, parlamentlər bütün bu məsələlərin həllində mühüm rol oynamalıdırlar. Eyni dinə sahib olan dost və qardaş xalqlarımızın nümayəndələri olaraq, ziddiyyət və bölünmələr əvəzinə həmrəyliyi, dialoqu və birliyi təşviq etməliyik.

Milli Məclisin sədri vurğulayıb ki, İƏT-ə üzv dövlətlərin Parlament İttifaqı həmrəyliyin möhkəmləndirilməsi üçün mühüm və effektiv bir çətir halına gəlib və əməkdaşlığın, birgə fəaliyyətlərin və ortaq məsələlər üzrə qəti mövqeyimizin inkişafı üçün vacib bir platformadır. Parlament diplomatiyası, dialoq və təcrübə mübadiləsi vasitəsilə cəmiyyətlərimizin üzləşdiyi çətinliklərin həllinə töhfə verə və xalqlarımızın rifahının artırılmasına nail ola bilərik.

Qlobal iqtisadiyyatın, getdikcə artan qarşılıqlı əlaqələrin dövlətlərimiz arasında əməkdaşlıq üçün yeni imkanlar yaratdığını vurğulayan Sahibə Qafarova bildirib ki, iqtisadi əlaqələri möhkəmləndirməklə, münasibətləri genişləndirməklə, investisiyaları təşviq etməklə, bilik və innovasiya mübadiləsini asanlaşdırmaqla gələcək nəsillərin xeyrinə regionumuzun nəhəng potensialından daha yaxşı istifadə edə bilərik. "İƏT üzvü olan dövlətlərin Parlament İttifaqı parlamentlərimiz arasında ünsiyyət, əlaqələndirmə və əməkdaşlıq üçün mühüm institusional çərçivə təmin edir. Azərbaycanın Milli Məclisi İƏTPİ-nin sədrliyini öz üzərinə götürərkən, İttifaqın rolunu möhkəmləndirmək və ortaq prioritetləri inkişaf etdirmək üçün bütün üzv parlamentlərlə sıx əməkdaşlıq etməyə hazırdır",-deyə spiker vurğulayıb.

**Azərbaycan nümunəvi təcrübəyə malikdir**

İƏTPİ-nin Baş katibi Muhammed Xurayçi Niyass çıxışında deyib ki, bu tədbir son dərəcə mürəkkəb bir dövrdə baş tutub: "İslam dünyasında dayanıqlı və inklüziv inkişafın təşviqi məqsədilə keçirilən konfransa göstərdiyi yüksək himayəyə görə Azərbaycan Prezidenti İlham Əliyevə dərin təşəkkürümü bildirirəm. Bu, Prezident İlham Əliyevin İslam əməkdaşlığına verdiyi dəyərin bariz nümunəsidir. Eyni zamanda, Bakının bu cür genişmiqyaslı beynəlxalq tədbirlərin keçirilməsi üçün etibarlı və fəal rolunu bir daha nümayiş etdirir". O qeyd edib ki, bu gün beynəlxalq ədalət sistemində uçurum dərinləşir, İslam aləmi isə ciddi çağırışlarla üz-üzədir. Dağıdıcı müharibələr xalqları tükəndirir, qlobal ərzaq təhlükəsizliyinə və enerji təminatına birbaşa təsir göstərir. Bu səbəbdən münaqişə və müharibələrin bütün formalarının rədd edilməsi zəruridir. Fikir ayrılıqlarının həllində dialoqdan ən optimal vasitə kimi istifadə olunması vacibdir. "Azərbaycan bu sahədə nümunəvi təcrübəyə malikdir. Ölkənin diqqətəlayiq inkişaf göstəriciləri, işğaldan azad edilmiş ərazilərin yenidən qurulması istiqamətində əldə olunan uğurlu təcrübələrin öyrənilməsi və paylaşılması daha dayanıqlı iqtisadiyyatın qurulmasına mühüm töhfə verə bilər", - deyə Baş katib vurğulayıb.

İndoneziyanın Nümayəndələr Palatasının sədri Puan Maharani isə videomüraciətində deyib ki, İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqına sədrliyin İndoneziyadan Azərbaycana keçməsi birgə missiyamıza sadiqliyin və qardaşlığımızın göstəricisidir. "Mən tam əminəm ki, Azərbaycanın sədrliyi İttifaqa üzv dövlətlər arasında əməkdaşlığın daha da möhkəmləndirilməsinə və yeni uğurların əldə olunmasına töhfə verəcək", - deyə sədr vurğulayıb.

**Yeni sistemin çoxqütblü olacağı şəksizdir**

Puan Maharani, həmçinin qlobal çağırışlar və İƏT-ə üzv ölkələrin üzləşdiyi problemlərin parlamentlərarası əməkdaşlıq vasitəsilə həllinin son dərəcə aktual məsələ olduğuna diqqət çəkib. O qeyd edib ki, İƏT ölkələrinin iqtisadiyyatları hələ də tam istifadə olunmamış böyük imkan və potensiala malikdir. Bu potensialın səmərəli şəkildə səfərbər edilməsi üzv dövlətlərin davamlı inkişafına, iqtisadi əməkdaşlığın genişlənməsinə və ümumi rifahın yüksəldilməsinə mühüm töhfə verə bilər.

Türkiyə Böyük Millət Məclisinin (TBMM) sədri Numan Kurtulmuş çıxışında bildirib ki, dünya bəlkə də bəşər tarixinin ən mühüm qırılma nöqtələrindən birini yaşayır: "Böyük münaqişələrin, böyük gərginliklərin, insan əli ilə yaradılan böyük problemlərin, eləcə də siyasi və iqtisadi mənada indiyədək görmədiyimiz böyük təlatümlərin yaşandığı bir dövrdəyik". Onun sözlərinə görə, ikiqütblü sistemin, ardınca isə təkqütblü sistemin geridə qalması ilə önümüzdə yeni bir dövrün səhifələri sonuna qədər açılır. Yeni sistemin ən bariz xüsusiyyətlərindən birinin çoxmərkəzlilik, çoxqütblülük olacağı şəksizdir. "Bu baxımdan, çox böyük potensiala malik olan İslam dünyasının üzərinə də dünyanın gələcəyində son dərəcə mühüm rollar düşür. İslam dünyasının önündə çox böyük fürsətlər açılır. Ona görə də biz malik olduğumuz bu mühüm fürsətlərin, yaşadığımız dövrün şərtlərini də yaxşı qiymətləndirərək fərqinə varmalı və lazımi addımları atmalıyıq", - deyə TBMM-in sədri vurğulayıb.

**Gələcək barədə qərarları regionda yaşayan xalqlar verməlidir**

"İslam dünyasının birliyinə və gələcək inkişaf potensialına töhfə verən belə mühüm tədbirin Bakıda keçirilməsi qürurverici haldır. Bu nüfuzlu platformanın yüksək səviyyədə təşkilinə görə təşəkkürümü bildirirəm". Bu fikirləri isə İran İslam Şurası Məclisinin sədri Məhəmməd Baqer Qalibaf deyib. O qeyd edib ki, inam və etiqadı itirmədən qarşıya qoyulan məqsədlərə və qələbəyə nail olmaq mümkündür. "İran öz təməl prinsiplərinə sadiq qalır. Təcrübə göstərir ki, diplomatiya yalnız qarşılıqlı hörmət, bərabərlik və dövlətlərin suverenliyinə ehtiram əsasında uğurlu ola bilər", - deyə İslam Şurası Məclisinin sədri vurğulayıb.

Qalibafın sözlərinə görə, regionun gələcəyini düşünən xalqlar öz taleləri və gələcəkləri barədə qərarları özləri verməlidir: "Regionun təhlükəsizliyi, ilk növbədə, region ölkələri tərəfindən təmin edilməlidir. Biz regionun gələcəyini əməkdaşlıqda, qarşılıqlı əlaqələrin inkişafında və dinc birgəyaşayışda görürük. İnanırıq ki, davamlı sülh və sabitliyə aparan yol birlikdən, dialoqdan və ortaq razılaşmalardan keçir".

Tədbirdə Mozambik Respublikası Assambleyasının sədri Marqarida Talapa, İordaniya Haşimilər Krallığı Nümayəndələr Palatasının sədri Mazen Torki Saud Əl-Qadi, Omanın Məşvərət Məclisinin sədri Xalid əl-Mavali, Niger Məsləhət Şurasının sədri Mamoudu Haruna Cinqarey, Şimali Kipr Türk Cümhuriyyəti (ŞKTC) parlamentinin sədri Ziya Öztürkler və digərləri çıxış ediblər.

*Nardar BAYRAMLI*

## Şimali Kipr parlamentinin sədri həmrəyliyə çağırış edib




Konfransa sədrliyi öz üzərinə götürən və ev sahibliyi edən qardaş ölkə Azərbaycan Respublikasına təşəkkürümü bildirirəm. Ötən il Bakıda keçirilmiş Azərbaycan, Türkiyə və Şimali Kipr Türk Cümhuriyyəti Parlamentlərarası Dostluq Qruplarının Üçüncü Toplantısı qardaşlıq münasibətlərinin daha da möhkəmlənməsinə mühüm töhfə verib.

AZƏRTAC xəbər verir ki, bu sözləri İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci Sessiyasının rəsmi açılış mərasimində Şimali Kipr Türk Cümhuriyyəti (ŞKTC) parlamentinin sədri Ziya Öztürkler deyib.

O, təəssüflə qeyd edib ki, İslam coğrafiyasının bir çox bölgəsində ağır humanitar böhran hökm sürür. "Bu mənzərə qarşısında İslam ölkələri vahid mövqe nümayiş etdirərək bir səs və bir ürək kimi çıxış etməli, ortaq, güclü və qətiyyətli iradə ortaya qoymalı, birgə mübarizə aparmalıdır", - deyə Ziya Öztürkler vurğulayıb.

## Qətər Şura Məclisinin sədri Azərbaycana təşəkkür edib




Azərbaycan Respublikasına göstərdiyi səmimi münasibətə, yüksək qonaqpərvərliyə və bu sessiyanın mükəmməl şəkildə təşkil olunmasına görə dərin təşəkkürümü və minnətdarlığımı bildirirəm. Bu gün biz parlamentlərimiz və məclislərimiz arasında əməkdaşlığın gücləndirilməsi ilə bağlı bir sıra məsələləri müzakirə etmək, həmçinin pak dinimizin bizi çağırdığı əməkdaşlıq, həmrəylik, ixtilaf və nifrətin rədd edilməsi prinsiplərini həyata keçirmək üçün İttifaqımız çərçivəsində bir araya gəlmişik.

AZƏRTAC xəbər verir ki, bu sözləri İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci Sessiyasının rəsmi açılış mərasimində Qətər Dövlətinin Şura Məclisinin sədri Həsən bin Abdulla Əl-Qanim deyib.

Həsən bin Abdulla Əl-Qanim vurğulayıb ki, ölkələr arasında əməkdaşlığın möhkəmləndirilməsi prosesində birliyə kölgə salan və xalqlar arasında fitnə-fəsad yaratmağa çalışan çağırışlara əhəmiyyət verilməməlidir.

## İqtisadi inkişaf sabitliyin şərtlərindən biridir




Biz çağırışların və böhranların artdığı bir vaxtda görüşürük. Belə ki, iqtisadi inkişaf artıq sabitliyin şərtlərindən birinə və suverenliyin mühüm sütununa çevrilib.

AZƏRTAC xəbər verir ki, bu sözləri İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci Sessiyasının rəsmi açılış mərasimində İordaniya Haşimilər Krallığı Nümayəndələr Palatasının sədri Mazen Torki Saud Əl-Qadi deyib.

O bildirib ki, millətlər buraxdıqları dərin izlərlə və qəbul etdikləri qərarların müdrikliyi ilə ölçülürlər. Yaşadığımız bu dövrdə isə yeni əlamətlər meydana çıxır, dəyişikliklər baş verir və bu çağırışların qarşısını yalnız müdrik zəkalar, sarsılmaz iradələr və vahid bir söz ətrafında birləşən qəlblər ala bilər.

Nümayəndələr Palatasının sədri qeyd edib ki, hərtərəfli iqtisadi inkişaf haqqında danışarkən bunu yalnız rəqəmlər və göstəricilərlə məhdudlaşdırmaq olmaz. İnkişaf öz mahiyyəti etibarilə hərtərəfli sivilizasiya layihəsidir ki, onun da əsas məqsədi tikinti-quruculuqdan öncə insan amili, ədalət və davamlılıqdır. Bu inkişaf isə resursların idarə olunması, onların istehsalata və elmə yönəlməsi ilə ölçülür.



# “Heydər Əliyev irsi: keçmişdən gələcəyə memarlıq körpüsü”















Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı və partiyanın İsmayıllı rayon təşkilatının birgə təşkilatçılığı ilə “Şəhərsalma və Memarlıq İli” çərçivəsində reallaşdırılan İsmayıllı rayonu ərazisində yerləşən “Qaya” istirahət mərkəzində keçirilən “Heydər Əliyev məktəbi” layihəsinin ikinci günündə gənc fəallarla “Heydər Əliyev irsi: keçmişdən gələcəyə memarlıq körpüsü” mövzusunda görüş keçirilib.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Görüşdə iştirak edən YAP İdarə Heyətinin üzvü, partiyanın Gəncə şəhər təşkilatının sədri Bayram Aslanov, Milli Məclisin deputatı Asif Əsgərov və YAP İsmayıllı rayon təşkilatının sədri Zaur Muradovun çıxışlarında bildirilib ki, Ulu Öndər Heydər Əliyev hələ ötən əsrin 70-80-ci illərindən başlayaraq Azərbaycanda böyük bir memarlıq və quruculuq hərəkatının təməlini qoyub. O, memarlığı sadəcə binaların inşası kimi deyil, xalqın daşlaşmış tarixi yaddaşı, milli mənsubiyyət pasportu və milli azadlıq ideyalarının vizual təzahürü kimi dəyərləndirirdi. SSRİ dönəminin ideoloji sıxıntılarına baxmayaraq, məhz Heydər Əliyevin cəsarəti və qətiyyəti sayəsində Bakıda və rayonlarımızda ucaldılan abidələrdə, inzibati binalarda milli memarlıq elementləri və ornamentləri ön plana çıxarılmış, respublikamızda unikal bir milli arxitektura məktəbi formalaşdırılmışdır.

Vurğulanıb ki, Ulu Öndər Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi hər iki dövrdə milli memarlıq ənənələrinin qorunmasına və inkişafına xüsusi diqqət yetirib. Ümummilli Lider şəhərsalma prinsiplərini xalqın tarixi yaddaşının və mədəni kimliyinin gələcək nəsillərə ötürülməsi missiyası kimi formalaşdırıb. Ölkəmizin qədim şəhərlərindən olan Gəncənin tarixi simasının qorunması, eləcə də İsmayıllı rayonunun Lahıc və Basqal kimi unikal mədəniyyət və sənətkarlıq mərkəzlərinin bərpası məhz bu uzaqgörən dövlətçilik konsepsiyasının məntiqi nəticəsidir.

Çıxışlarda Heydər Əliyevin Bakının tarixi mərkəzinin - İçərişəhərin, Şirvanşahlar sarayının, habelə Gəncə, Şəki, Şuşa və Naxçıvan kimi qədim şəhərlərimizin tarixi-mədəni qoruqlarının mühafizəsinə verdiyi müstəsna önəm də xatırladılıb.

Diqqətə çatdırılıb ki, Ulu Öndərin əsasını qoyduğu və bu gün Prezident İlham Əliyev tərəfindən mükəmməl şəkildə davam etdirilən regionların sosial-iqtisadi inkişafı strategiyası bölgələrimizin simasını tamamilə modernləşdirib. İsmayıllının Lahıc və Basqal kimi qədim sənətkarlıq zonalarının qorunması bu diqqətin bariz nümunəsidir.

Bu gün işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurda ucaldılan müasir infrastruktur, reallaşdırılan “Ağıllı şəhər” və “Ağıllı kənd” layihələri, əslində Heydər Əliyevin yarımçıq qalmış arzularının və Onun gələcəyə uzanan böyük memarlıq körpüsünün ən parlaq təzahürüdür. Bildirilib ki, gənc YAP fəalları bu tarixi quruculuq və regional inkişaf prosesinin ön sıralarında yer almalı, öz intellektual potensialları ilə dövlətimizə xidmət etməlidirlər.

Görüşdə gənc fəallardan Nicat Bayramov, Ayşən Quliyeva, Turqay Daşdəmirli və başqaları mövzu ilə əlaqədar öz fikirlərini bölüşüblər.

Sonra görüş iştirakçılarının sualları cavablandırılıb.

Layihədə iştirak edən gənclər daha sonra İsmayıllı rayonunun qədim sənətkarlıq və memarlıq mərkəzi olan Lahıc qəsəbəsinə ekskursiya edərək qəsəbənin qədim küçələrini gəzib, misgərlik, xalçaçılıq və digər xalq sənətlərinin yaşadıldığı emalatxanalara baş çəkiblər. Səfər çərçivəsində gənclərə Lahıcın daxil olduğu mədəni irsin dövlət tərəfindən qorunması və bərpası istiqamətində həyata keçirilən layihələr barədə ətraflı məlumat verilib.

Daha sonra yay məktəbi iştirakçılarının intellektual hazırlığını, dünyagörüşünü və natiqlik bacarıqlarını inkişaf etdirmək məqsədilə “History Brainstorm” intellektual oyunu və “Gənc Spiker” debat turniri təşkil olunub. Oyunda fəalların Azərbaycanın şanlı tarixi, mədəniyyəti və dövlətçilik salnaməsinə dair bilikləri yoxlanılıb, müasir çağırışlar, şəhərsalma trendləri və gənclər siyasəti mövzularını əhatə edən debat formatlı turnirdə fəallara öz komanda işi bacarıqlarını nümayiş etdirmək üçün geniş imkanlar yaradılıb.

# Etibarlı maliyyə tərəfdaşı

## Qara Dəniz Ticarət və İnkişaf Bankı ölkəmizdə yeni layihələri maliyyələşdirəcək

İslam İnkişaf Bankı (İİB) Qrupunun İllik Toplantıları çərçivəsində iqtisadiyyat naziri Mikayıl Cabbarov Qara Dəniz Ticarət və İnkişaf Bankının (QDTİB) prezidenti Serhat Köksal ilə görüşüb. Görüşdə Azərbaycan ilə QDTİB arasında əməkdaşlığın genişləndirilməsi perspektivləri müzakirə olunub. Tərəflər bankın ölkəmizdə həyata keçirilməsi nəzərdə tutulan layihələrdə iştirakı, o cümlədən dövlət-özəl tərəfdaşlığı təşəbbüslərinə cəlb olunması və müvafiq maliyyə alətlərindən istifadə imkanlarını nəzərdən keçiriblər. Bildirilib ki, QDTİB ilə əməkdaşlığın inkişaf etdirilməsi Azərbaycanın iqtisadi prioritetlərinə uyğun layihələrin dəstəklənməsi, investisiya imkanlarının genişləndirilməsi və dayanıqlı inkişaf məqsədlərinə nail olunması baxımından mühüm əhəmiyyət daşıyır.

QDTİB heyəti Azərbaycanda potensial layihələrdə iştirakını artırmaq niyyətini ifadə edib. S. Köksal dünyada baş verən geoiqtisadi mürəkkəb vəziyyətə baxmayaraq, bankın maliyyə-investisiya siyasətinə sadiq qaldığını xatırladıb. Orta Müddətli Strategiya əsasında maliyyələşmənin davam etdiriləcəyi və Biznes planının ikinci mərhələsinə başlanılacağı qeyd edilib. Qara Dəniz Bankının nəqliyyat dəhlizlərinin açılması və Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin bərpasında, nəqliyyat və logistika infrastrukturunun inkişafına sərmayə yatıracağı bəyan olunub.

Qara Dəniz Bankının Rəhbərlər Şurası tərəfindən ortamüddətli strategiya sənədi, 2026-2027-ci illər üzrə biznes planı, cari kredit portfeli və maliyyələşdirmə mənbələri, habelə üzv ölkələr arasında bank və biznes sahəsində mövcud imkanların və potensialın daha da genişləndirilməsinə dair anlaşmalar əldə edilib. Strateji plana əsasən, bankın kredit portfelinin artırılmasına aparıcı səhmdarlardan biri kimi Azərbaycanın da rolunun artacağı, eləcə də kredit portfelində əlavə maliyyə resursları alacağı ehtimal edilir.

**500 milyon avrodan çox maliyyə donorluğu**

Qara Dəniz Ticarət və İnkişaf Bankı ilə Azərbaycan arasında əlaqələrin 27 illik tarixi ərzində mühüm layihələrin icrası həyata keçirilib. 1999-cu ildə Azərbaycanın iştirakı ilə təsis edilmiş bu beynəlxalq maliyyə institutu ölkəmizin iqtisadiyyatına investisiyaların qoyulmasında, xüsusilə özəl sektorun maliyyələşməsində fəal rol oynayıb. Bankın Azərbaycandakı əsas portfeli kiçik və orta sahibkarlığa dəstək, enerji, daşınmaz əmlak, istehlak malları və sənaye sektorlarını təşkil edir.

QDTİB ölkəmizdə müxtəlif sektorları əhatə edən layihələrə uzun illərdir ki, maliyə dəstəyi verir, investisiya fəallığı nümayiş etdirir. Beynəlxalq dövlətlərarası maliyyə kredit təşkilatı olan bank iqtisadi inkişafı və regional əməkdaşlığa töhfə verir. Üzv ölkələrdə dövlət və özəl sektorlarda layihələr üçün kreditlərin verilməsi, kredit xətlərinin açılması, investisiyaların və zəmanətlərin verilməsində və ticarətin maliyyələşdirilməsində iştirak edir.

Fəaliyyətə başladığı vaxtdan QDTİB Azərbaycan hökumətinin investisiya prioritetlərinə uyğun olaraq ümumi dəyəri 500 milyon avrodan çox olan 40-dan çox layihəni maliyyələşdirib. Bank “Şahdəniz” kimi strateji əhəmiyyətli enerji layihələrində iştirak edib, eyni zamanda, kiçik və orta biznesə davamlı dəstəyini artırıb. Ümumilikdə, Qara Dəniz Bankının Azərbaycana yönəltdiyi investisiyaların həcmi ümumi kredit portfelinin təxminən 10 faizlik resursu həcmindədir.

Azərbaycan bu bankın üzvü olmaqla yanaşı, həm də səhmdarlarından biridir. QDTİB-in səhm kapitalında ölkəmiz 5 faiz paya malikdir ki, bu, 7-ci ən böyük səhmdarlıq statusu deməkdir. QDTİB-nin Rəhbərlər Şurasının 2021-ci ilin oktyabrında keçirilən Xüsusi Toplantısında bankın abunə kapitalının artırılmasında Azərbaycan da mühüm rol oynayıb, ümumi dəyəri 41 milyon avro təşkil edən 36,6 min səhmin 12,3 milyon avro məbləğində olan hissəsi ölkəmiz tərəfindən əldə edilib.

**Əməkdaşlığın yeni gündəliyi - “yaşıl enerji” və “yaşıl maliyyə”...**

Bu gün yeni çağırşlar fonunda maliyyə qurumları ilə ən sərfəli kreditləşmə üçün yeni münbit mərhələ açır ki, güclü əlaqələrə, ortaq tarixə və məhsuldar, konstruktiv münasibətlərə malik İslam İnkişaf Bankından maliyyənin cəlbi nəzərdə tutulur. Təmkinli borclanma siyasəti isə həm regional inkişaf habının mərkəzinə çevrilən ölkəmizin müasir infrastruktur niyyətlərini - nəqliyyat, kənd təsərrüfatı, su təchizatı, bərpaolunan enerji ilə bağlı dövlət proqramlarını və digər strateji hədəfləri reallaşdırmağa, həm də azad ərazilərin quruculuq intibahını tezləşdirməyə imkan yaradacaq.



İslam İnkişaf Bankı Qrupunun toplantısında yeni çağırşlar fonunda maliyyə qurumları, o cümlədən QDTİB ilə sərfəli kreditləşmə üçün yeni münbit mərhələnin açıldığı bəyan edilib. Qara Dəniz Bankı ilə Azərbaycan arasında əməkdaşlığın müasir gündəliyində KOB-ların inkişafı və sahibkarlıq subyektlərinin maliyyə resurslarına çıxış imkanlarının artırılması, “yaşıl iqtisadiyyat”ın təşviqi məqsədilə korporativ və fərdi müştərilərin ehtiyaclarının kreditləşdirilməsi və digər prioritetlər daxildir. Həmçinin işğaldan azad edilmiş ərazilərdə biznesə dəstək və müasir sənaye-emal zəncirinin qurulmasında bankın donorluğu istisna olunmur. SOCAR-la “yaşıl enerji” üzrə layihələrin həyata keçirilməsi də danışıqlar mövzusundadır. Bir neçə ay əvvəl Bakıda olan bankın vitse-prezidenti Draqoş-Paul Ungureanu işğaldan azad edilmiş ərazilərin bərpası və bərk məişət tullantılarının idarə olunması layihələrinin maliyyələşdirilməsində iştirakın mümkünlüyünü vurğulayıb.

QDTİB ölkəmizlə yeni əməkdaşlıq mərhələsində “yaşıl maliyyələşmə” və investisiyaların artırılmasını da istiqamətlərdən biri hesab edir. Bu məqsədlə Azərbaycanın maliyyə institutları, o cümlədən banklarla “yaşıl layihələr” üzrə müqavilənin imzalanması nəzərdə tutulur. Bankın rəhbərliyi COP29 çərçivəsində qlobal alyansın razılaşdırdığı iqlim maliyyəsi strategiyasına da müsbət yanaşaraq iqlim donorluğunda imkanlarının səfərbər ediləcəyini də bildirib. Bu çərçivəyə əsasən, Azərbaycanın “yaşıl maliyyə” üzrə investisiya prioritetlərinə QDTİB-in maliyyə dəstəyi verəcəyi ehtimal olunur. Yeni maliyyələşmə isə həm regional inkişaf habının mərkəzinə çevrilən ölkəmizin müasir infrastruktur niyyətlərini - nəqliyyat, kənd təsərrüfatı, su təchizatı, bərpaolunan enerji ilə bağlı dövlət proqramlarını və digər strateji hədəfləri reallaşdırmağa, həm də azad ərazilərin quruculuq intibahını tezləşdirməyə imkan yaradacaq.

*E.CƏFƏRLİ*

# BMT müstəvisində növbəti uğur

Azərbaycan həm ikitərəfli münasibətlər, həm də beynəlxalq təşkilatlar çərçivəsində fəal xarici siyasət həyata keçirir. Bu baxımdan, ölkəmizin Birləşmiş Millətlər Təşkilatı (BMT) müstəvisində aktivliyi də xüsusi vurğulanmalıdır. Bunun nəticəsidir ki, ölkəmiz ən böyük beynəlxalq təşkilatın strukturlarında fəal təmsil olunur. Məsələn, ötən il BMT-də keçirilmiş seçkilərdə Azərbaycan Respublikası BMT-nin Əhali və İnkişaf Komissiyasının (CPD) 2026-2030-cu illər üzrə və Sosial İnkişaf Komissiyasının (CsocD) 2025-2029-cu illər üzrə üzvlüyünə seçilib. Hər iki komissiya BMT-nin iqtisadi və sosial məsələləri üzrə əsas orqanı olan ECOSOC-un funksional komissiyalarıdır. Hazırda ölkəmiz BMT ECOSOC-un 2025-2027-ci illər üzrə üzvləri arasında yer alır.





**Azərbaycan nümayəndəsi CRC-nin üzvü seçilib**

Yeri gəlmişkən, bugünlərdə BMT müstəvisində növbəti uğur qazanılıb. Belə ki, iyunun 23-də Nyu-York şəhərində Uşaq Hüquqları haqqında Konvensiyaya tərəf dövlətlərin 21-ci iclası çərçivəsində Azərbaycan Respublikasının namizədi BMT-nin Uşaq Hüquqları Komitəsinin (CRC) 2027-2031-ci illər üzrə üzvlüyünə seçilib. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən verilən məlumata görə, ciddi beynəlxalq rəqabət şəraitində baş tutmuş seçkilərdə Azərbaycanla birgə 16 ölkədən olan namizədlər Komitədə mövcud 9 vakant yer uğrunda mübarizə aparıb. Azərbaycan Respublikası tərəfindən namizədliyi irəli sürülmüş Esseks Universitetinin doktorantı Fərid Ədilov səsvermənin ilk mərhələsində iştirakçı dövlətlərin əksəriyyətinin etimadını qazanaraq, 130 səslə Komitəyə üzv seçilib. Beləliklə, Azərbaycan Respublikasının vətəndaşı ilk dəfə olaraq sözügedən komitədə təmsil olunacaq.

BMT-nin Uşaq Hüquqları Komitəsi 1989-cu il Uşaq Hüquqları haqqında Konvensiyanın icrasına nəzarət edən nüfuzlu müqavilə qurumudur. Komitə qlobal miqyasda seçilən 18 müstəqil ekspertdən ibarət olmaqla, Konvensiyaya tərəf dövlətlərin öhdəliklərinin yerinə yetirilməsini nəzərdən keçirir.

Qeyd edək ki, Cənubi Qafqaz regionunda lider dövlət kimi çıxış edən, müstəqil xarici siyasət həyata keçirən Azərbaycan beynəlxalq müstəvidə səmərəli əməkdaşlıq əlaqələrinə malikdir. Bu kontekstdə ölkəmizin beynəlxalq qurumlarla əməkdaşlığı xüsusilə qeyd edilməlidir. Daha da dəqiqləşdirsək, həyata keçirdiyi balanslaşdırılmış və çoxvektorlu xarici siyasət kursu ilə regional və qlobal təhlükəsizliyə mühüm töhfələr verən, dünya siyasətində etibarlı tərəfdaş kimi tanınan Azərbaycan beynəlxalq təşkilatlarda uğurla təmsil olunur. Həmçinin, ayrı-ayrı nüfuzlu beynəlxalq təşkilatlar Azərbaycanla əməkdaşlığı strateji prioritet kimi müəyyənləşdiriblər. Ölkəmiz isə müxtəlif beynəlxalq qurumlarda sadəcə üzv dövlət kimi təmsil olunmur, eyni zamanda, onların funksionallığının artmasına davamlı töhfələr verir, qərarların qəbul və icra olunmasında mühüm rol oynayır. Xatırlatmaq yerinə düşər ki, Azərbaycan qısa müstəqillik tarixində BMT Təhlükəsizlik Şurasına (TŞ) 2012-1013-cü illər üzrə qeyri-daimi üzv seçilib, sıralarında 120 dövləti birləşdirən Qoşulmama Hərəkatına uğurla sədrllik edib, Türk Dövlətləri Təşkilatında (TDT) öncül ölkələrdən birinə çevrilib, əksər regional təşkilatlarda uğurlu təmsilçiliyə malikdir.

**Azərbaycan təşkilatın strukturlarında fəal təmsil olunur**

O cümlədən, ölkəmizin BMT strukturlarına üzv seçilməsi də məmnunluq doğurur. Məlumdur ki, Azərbaycan BMT-nin bir çox xüsusi qurum və orqanları ilə səmərəli əməkdaşlığa böyük önəm verib. Onların sırasında BMT-nin İnkişaf Proqramı (BMTİP), BMT-nin Uşaq Fondu, BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatı, Sənaye İnkişaf Təşkilatı, Ümumdünya Səhiyyə Təşkilatı, BMT-nin Qadınlar Fondu və s. qeyd etmək olar. Bundan başqa, təhsil, elm və mədəniyyət məsələlərinin vacibliyini nəzərə alaraq, Azərbaycan BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatı (UNESCO) ilə geniş əməkdaşlıq edir və bu məqsədlə 1994-cü ildə Azərbaycan Prezidentinin sərəncamına əsasən ölkəmizin UNESCO nəzdində Milli Komissiyası təsis edilib. Yeri gəlmişkən, ölkəmiz UNESCO-nun Silahlı Münaqişələr zamanı Mədəni Mülkiyyətin Qorunması üzrə Komitəsinə 2025-2029-cu illər üzrə üzv seçilib. 4 vakant yer uğrunda Azərbaycanla birgə 6 ölkə mübarizə aparıb. Rəqabət şəraitində keçirilmiş seçkilərin nəticəsində Azərbaycan səsvermənin ilk mərhələsində iştirak edən ölkələrin əksəriyyətinin səsini toplayıb. Azərbaycanın bu komitəyə üzv seçilməsi ölkəmizin mədəni irsin qorunması sahəsində beynəlxalq aləmdə formalaşmış müsbət imicinin, beynəlxalq platformalarda nümayiş etdirdiyi fəallığın və apardığı ardıcıl siyasətin göstəricisidir.

Sözügedən komitə silahlı münaqişələr zamanı mədəni mülkiyyətin qorunmasını təmin etmək, 1954-cü il Haaqa Konvensiyasının və onun İkinci Protokolunun tələblərinə əməl olunmasına nəzarət etmək, habelə dövlətlərə bu sahədə texniki, hüquqi və institusional dəstəyin göstərilməsini təşviq etmək məqsədilə yaradılıb. Azərbaycanın UNESCO-nun Silahlı Münaqişələr zamanı Mədəni Mülkiyyətin Qorunması üzrə Komitəsinə 2025-2029-cu illər üzrə üzv seçilməsini şərtləndirən digər bir mühüm amil də ölkəmizin reallıqları və Azərbaycan dövlətinin mədəni irsin qorunmasına verdiyi böyük önəmlə bağlıdır. Deyə bilərik ki, respublikamızda bu istiqamətdə davamlı və məqsədyönlü fəaliyyət həyata keçirilir. Azərbaycan abidələr diyarıdır və bu abidələr müxtəlif sivilizasiyalara aiddir.

**Ölkəmiz BMT-də islahatlar aparılmasının tərəfdarıdır**

Bütün bunlarla yanaşı, Azərbaycan beynəlxalq ictimaiyyəti narahat edən müxtəlif məsələlər ilə əlaqədar BMT səviyyəsində qətnamələr də irəli sürüb. Məsələn, BMT-nin İnsan Hüquqları Komissiyasının (CHR) 58-60-cı sessiyalarında Azərbaycan nümayəndə heyəti tərəfindən irəli sürülmüş "İtkin düşmüş şəxslər" adlı qətnamə layihəsi təklif edilib. CHR tərəfindən qəbul edilmiş bu qətnamənin müddəaları beynəlxalq humanitar hüquq normaları əsasında qəbul edilməklə, beynəlxalq ictimaiyyətin diqqətini bu mühüm məsələyə yönəltmək məqsədi daşıyır.

Ötən illər ərzində Azərbaycanın BMT çərçivəsində görülən işlərə verdiyi töhfələr sırasında, onun qlobal səviyyədə terrorizmə qarşı aparılan mübarizədə fəal şəkildə iştirakı da xüsusilə qeyd edilməlidir. Bu baxımdan respublikamız BMT TŞ-nın Terrorizmə qarşı Komitəsi ilə yaxından əməkdaşlıq edərək, həmin komitəyə Azərbaycanda terrorizmə qarşı mübarizə sahəsində görülən tədbirlər haqqında müvafiq hesabatlar təqdim edib.

Bütövlükdə, ölkəmiz beynəlxalq sülhün və təhlükəsizliyin möhkəmləndirilməsi və qorunmasında, davamlı inkişaf prosesində BMT-nin vacib rol oynadığını qəbul edir. Bununla belə, Azərbaycan BMT-nin beynəlxalq müstəvidə təhdid və problemlərə qarşı lazımi səviyyədə mübarizə apara bilməsi üçün təşkilat çərçivəsində islahatların aparılması ideyasını dəstəkləyir.

***Nardar BAYRAMLI***

# "Connectivity Agenda Platform"u istifadəyə verilib

Avropa İttifaqı (Aİ) Çin, Mərkəzi Asiya, Cənubi Qafqaz, Türkiyə və Avropanı birləşdirən Orta Dəhliz boyu nəqliyyat, enerji və rəqəmsal layihələrin koordinasiyası üçün yeni "Connectivity Agenda Platform"u istifadəyə verib. Aİ-nin genişlənmə üzrə komissarı Marta Kos platformanın istifadəyə verilməsinə həsr olunmuş konfransda bildirib ki, yeni platforma ayrı-ayrı təşəbbüsləri bir araya gətirmək, regionun nəqliyyat və logistika əlaqəsinin inkişafı üzrə vahid strategiyanı birləşdirmək məqsədi daşıyır. Ölkələr arasında əməkdaşlığı yeni səviyyəyə yüksəltməkdə qərarlı olan Aİ "Connectivity Agenda Platform"un bu istiqamətdə əlaqələndirilmiş ümumi baxış hazırlanmasına imkan verəcəyini bildirib. Platforma həmçinin hökumətləri, beynəlxalq maliyyə institutlarını və özəl investorları ümumi investisiya gündəliyi ətrafında birləşdirərək, maliyyə resurslarının cəlb edilməsini asanlaşdırmağa xidmət edir.

# Avropa İttifaqı Orta Dəhlizin inkişafı üçün səylərini artırır




## Orta Dəhliz ortaq iqtisadi həmrəylik körpüsüdür

Orta Dəhliz hazırda Çin və Cənub-Şərqi Asiyanı Avropa ilə Qazaxıstan, Xəzər dənizi, Azərbaycan, Gürcüstan və Türkiyə vasitəsilə birləşdirən nəhəng quru-dəniz nəqliyyat-logistika habı kimi qlobal nəqliyyat ailəsinin xüsusi diqqətini cəlb etməkdədir. 2014-cü ilin fevral ayında Azərbaycan, Qazaxıstan və Gürcüstanın müvafiq strukturlarının iştirakı ilə yaradılan dəhlizə digər ölkələr də qoşulub. Hazırda marşrut Çin-Qazaxıstan sərhədindən başlayır və Avropaya qədər uzanır.

Rusiya-Ukrayna müharibəsinin başlaması nəticəsində yaranan qeyri-sabitlik Rusiya ərazisi ilə əlaqəli ənənəvi nəqliyyat marşrutlarını pozdu. Avropanın Rusiyaya qarşı sanksiyaları tranzit marşrutlarını daha da məhdudlaşdırdı. Şimal Dəhlizi boyunca yaranmış fasilələr və problemlər səbəbindən Avrasiya ölkələri və biznes subyektləri alternativ ticarət marşrutları axtarışına çıxarkən Azərbaycandan keçən Orta Dəhliz həyati əhəmiyyət daşıyan bir arteriyaya çevrildi. Son illərdə Orta Dəhliz Çin Xalq Respublikası ilə Avropa arasında əlverişli ticarət marşrutu kimi önəm qazanıb. Qeyd etmək lazımdır ki, Şimal Dəhlizinə əsas alternativ olan Orta Dəhlizlə Çindən Avropaya 12 gün ərzində 10 min kilometr deyil, 7 min kilometr məsafə qət etməklə daşınmalar mümkündür.

Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu üzrə yükdaşımaların həcmi əvvəlki illə müqayisədə 2024-cü ildə 62 faiz artaraq 4,5 milyon tona çatıb. Tranzit axını xüsusilə nəzərəçarpacaq artım nümayiş etdirib: ümumi tranzit həcmi 4 dəfə, Çindən tranzit isə 25 dəfədən çox artıb. Bundan əlavə, 2025-ci ilin ilk 10 ayında marşrut vasitəsilə Çindən 292 konteyner qatarı yola salınıb ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 12 faiz artım deməkdir.

Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, həmçinin İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının proqnozlarına əsasən, 2030-cu ilə qədər Orta Dəhliz üzrə daşımaların həcmi 11 milyon tona, 2040-cı ilə qədər isə konteyner tutumu 865 min TEU-ya yüksələcək. Bu, Azərbaycan üçün yalnız müvəqqəti alternativ və ya ehtiyat planı deyil, həm də qlobal ticarət üçün uzunmüddətli, davamlı bir yoldur.

## Aİ infrastruktura 2 milyard avrodan çox investisiya cəlb etmək niyyətindədir

Aİ Orta Dəhlizi (Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu, TBNM) Avropa və Asiya arasındakı ənənəvi ticarət marşrutlarına vacib alternativ kimi qiymətləndirir. Lakin onun inkişafı buraxılış qabiliyyətinin məhdud və daşıma müddətinin uzun olması səbəbindən ləngiyir. Hazırda yüklərin Çin və Qazaxıstan sərhədindən Rumıniyaya çatdırılması 45 günə qədər vaxt apara bilər. Kos bildirib ki, müddəti 15 günə qədər azaltmaq niyyətindəyik. O, dəmir yolu və avtomobil infrastrukturunun çatışmayan həlqələrini, buraxılış qabiliyyəti ilə bağlı məhdudiyyətləri və digər infrastruktur boşluqlarını marşrutun əsas "dar boğazları" adlandırıb. Sərhəd prosedurlarındakı fərqlər, sistemlərin uyğunsuzluğu və inzibati gecikmələr əlavə maneələr olaraq qalmaqdadır. Bu problemlərin həlli üçün Aİ nəqliyyat infrastrukturunun modernləşdirilməsinə, gömrük prosedurlarının rəqəmsallaşdırılmasına və region ölkələri arasında tənzimləmə qaydalarının uyğunlaşdırılmasına investisiya yatırmaq niyyətindədir.

Kosun sözlərinə görə, Aİ-nin iştirakı ilə təşəbbüs çərçivəsində imzalanan layihələr 80 milyon avrodan çox Avropa maliyyəsinin ayrılmasını nəzərdə tutur və nəqliyyat, enerji və rəqəmsal infrastruktura 2 milyard avrodan çox investisiya cəlb etmək potensialına malikdir.






## Avropa İttifaqının Orta Dəhlizdə yeri

Avropa ölkələri də Orta Dəhliz ailəsinə qoşulmaq üçün öz nəqliyyat infrastrukturlarını inteqrasiya etmək yönündə addımlar atmağa başlayıb.

Bolqarıstanın Qara dənizdəki Varna və Burqas limanlarının Orta Dəhliz\ birləşdirilməsi nəzərdə tutulur. Bununla bağlı Bolqarıstan Prezidenti Rumen Radev və Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev arasında Astanada keçirilən Qazaxıstan-Bolqarıstan Hökumətlərarası Komissiyasının iclası çərçivəsində razılaşma əldə edilib. Tərəflər Burqas və Varna dəniz limanlarının Qazaxıstanın strateji nəqliyyat-ticarət marşrutlarına inteqrasiyası üçün birləşdirici dəhliz layihəsi üzərində işləməyə razı olduqlarını bəyan ediblər.

Həmçinin, Sloveniya da nəqliyyat şəbəkəsini Orta Dəhlizə birləşdirmək yönündə praktiki addımlar atmaqdadır. Cari ilin aprelində Sloveniya hökuməti Şərqlə ticarət əlaqələrini genişləndirmək niyyətini bəyan edib. Qazaxıstan və Sloveniyanın dövlət başçıları - Kasım-Jomart Tokayev və Nataşa Pirç Musarın görüşü zamanı nəqliyyat və logistika sektorunda kommunikasiyaların əhatə dairəsinin genişləndirilməsi zamanı rəsmi Lyublyana Orta Dəhlizə qoşulmaq niyyətini ifadə edib. Sloveniya hökuməti Adriatik dənizindəki Koper dəniz limanının digər nəqliyyat xətlərinə inteqrasiya olunması sayəsində Orta Dəhlizə çıxış eldə etmək istəyir.

Ümumilikdə, Orta Dəhlizdə daşınmaların həcminin və dəhlizin geoiqtisadi əhəmiyyətinin artması Avropa İttifaqının da marağını bu bölgəyə daha çox fokuslayıb, Avropanın əksər ölkələri Mərkəzi Asiya-Xəzər -Avropa coğrafiyasına xüsusi önəm verərək bu bölgənin nəqliyyat infrastrukturlarının yenilənməsinə dəstək niyyətlərini bəyan edirlər. Avropa Komissiyasının beynəlxalq əməkdaşlıq üzrə baş direktoru Henrik Hолоle Mərkəzi Asiya ölkələrinin Orta Dəhlizin formalaşması istiqamətində səylərini müsbət dəyərləndirib, onların bu iradəsi sayəsində vahidi Asiya-Avropa nəqliyyat blokunun tam rentabelli işinin təmin ediləcəyini vurğulayıb. Bu prosesdə Aİ-nin bütün zəruri dəstəkləri verəcəyi xatırlanıb.

## Növbəti dayanacaq Zəngəzurdur

Perspektiv isə daha ümidverici potensiallardan xəbər verir. Azərbaycanın yaratdığı yeni reallıqlar fonunda bölgənin coğrafiyası və logistika xəritəsi dəyişməkdədir, Zəngəzur dəhlizinin Orta Dəhliz zəncirinə qoşulması üçün səylər gücləndirilib. Zəngəzur dəhlizi Çin və Mərkəzi Asiya ölkələri ilə Avropa arasında nəqliyyat əlaqələrinin şaxələndirilməsini təmin edəcək ən qısa dəhliz hesab olunur. Hazırda bölgədə qurulan dəmir yolu şəbəkələri demək olar ki, yekunlaşmaqdadır. Yaxın vaxtlarda bu işlər tam başa çatdıqdan və nəqliyyat qovşaqlaı vahid bloka inteqrasiya olunduqdan sonra Zəngəzurdakı resursların da dünya bazarına sözügedən dəhlizlə çıxarılması mümkün olacaq.

Azad ərazilərdə çalışan biznesin ixrac malları birbaşa qatarlarla Çinə daşınması bölgənin əhəmiyyətini də artıracaq. Həmin bölgədə güclü sənaye və aqrar potensiallar var və hazırda bir neçə sənaye müəssisəsi faktiki olaraq fəaliyyətini ölkə iqtisadiyyatına reinteqrasiya edib. Ağdam Sənaye Parkındakı 5 sənaye müəsissəsi bir neçə ay əvvəl istehsala başlayıb. Cəbrayıldakı "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında da yaxın günlərdə sənaye istehsalı öz töhfələrini verəcək. Eləcə də bölgədə, kənd təsərrüfatı klasterləri qurulmaqdadır.

Bütün bunlar Qarabağ və Şərqi Zəngəzurun iqtisadi imkanlarını səfərbər edərək malların Orta Dəhlizlə birbaşa uzaq Şərqə və Çinə ixracını təmin edəcək, həmçinin Azərbaycanın iqtisadi gücünü daha da artıracaq.

***ELBRUS CƏFƏRLİ***

# Fransadan gecikmiş etiraf

**Zaman hər şeyi yerbəyer edir. Tarixin sınağından çıxmış bu həqiqəti həmçinin Fransanın bəyan etdiyi demokratiya, qardaşlıq, bərabərlik prinsipləri ilə bir araya sığmayan müstəmləkəçilik, irqi ayrı-seçkiçilik siyasətinin uzun illər ərzində məqsədli şəkildə beynəlxalq ictimaiyyətdən gizlədilmiş qaranlıq məqamlarının bir-bir aşkarlanmasının timsalında da aydın şəkildə izləmək mümkündür. İş o yerə çatıb ki, artıq Fransanın özündə də Yelisey Sarayının siyasi direktivləri əsasında Afrikada, dənizaşırı ərazilərdə yol verilmiş ağır müstəmləkə cinayətləri etiraf olunur. Bu günlərdə isə Fransa Senatı “Reyunyon uşaqları” məsələsi ilə bağlı mühüm qərar qəbul edib. Vurğulayaq ki, Fransanın müstəmləkəçilik siyasətinin ən ağrılı səhifələrindən birini təşkil edən “Reyunyon uşaqları” məsələsi ətrafında uzun illər ərzində müxtəlif baxış bucaqlarından müzakirələr aparılıb. Nəhayət, müzakirələr Senatda müvafiq qanunun qəbul edilməsi ilə nəticələnib. Xatırladaq ki, Senatda yekdil səsvermə ilə qəbul edilən bu qanun bir neçə ay əvvəl Milli Assambleyanın da təsdiqindən keçib. Bəli, rəsmi Paris nəhayət, necə deyərlər, gizlənpaç oyununa son qoymalı, məsuliyyətini dilə gətirərək üzr istəməli və müvafiq təzminatların ödənilməsi prosesinə başlamalıdır.**

## Yelisey Sarayının müstəmləkəçilik tarixinə qısa baxış



Adətən, qədim tarixə, mədəniyyətə malik olmaq ölkələr, xalqlar üçün başucalığı sayılır. Təxminən 500 ili əhatə edən müstəmləkəçilik tarixi isə Fransanın, yumşaq desək, üzqarasıdır. Bu ölkənin müstəmləkəçilik tarixinin 1524-cü ildən başladığı bildirilir. Fransa Afrikanın qərbində və şimalında 20-dən çox ölkədə hökmranlıq qurmağa nail olub. Afrika ərazilərinin təxminən 35 faizi 300 il ərzində Fransanın nəzarətində qalıb.

Demokratik dəyərləri ilə öyünən Fransa özünün ağır şərtləri ilə fərqlənən müstəmləkə şəbəkəsinə daxil etdiyi Afrika ölkələrinə yaxşı heç nə gətirməyib. Əksinə, ən qəddar vasitələrlə ram edilən ölkələr sivilizasiya ilə bir araya sığmayan mühafizəkar qanunlarla idarə olunub, təbii sərvətlər talanıb, baş qaldıran etirazlar ən sərt və qəddar müdaxilələrlə yatırılıb. Fransa, Seneqal, Niger, Kamerun və Mavritaniya kimi bir çox Afrika ölkələrində, xüsusilə də Əlcəzair və Ruandada daxili qarşıdurma və soyqırımı üçün məsuliyyət daşıyır. Tarixi sənədlərdə də öz əksini tapdığı kimi, 1945-ci il mayın 8-i Fransanın Əlcəzairdə soyqırımının başladığı tarixdir. Bu soyqırımda 5 milyondan çox müsəlman əlcəzairli həyatını itirib. 1994-cü ildə fransızlar Ruandada “təhlükəsiz zona yaratmaq” adı altında hərbi əməliyyat həyata keçiriblər. Həmin əməliyyat zamanı yerli tutsi qəbiləsinin 800 mindən çox üzvü qətlə yetirilib. Fransa qoşunlarının Çadda keçirdikləri “Epervier”, Fildişi Sahilində “Licorne” hərbi əməliyyatları da çox sayda insan tələfatı ilə nəticələnib. Fransa hələ 1945-ci ildən etibarən Afrikada Fransız Müstəmləkələri frankı (CFA) adlı pul vahidini dövriyyəyə buraxıb. Məhz bu pul vahidinin sayəsində Fransa Afrika ölkələrini istismar edir, onların sərvətlərini mənimsəyir. Məlum olduğu kimi, Afrikanın Sahil regionu ölkələri, habelə Fildişi Sahili və Malidə baş verən münaqişələrin əsas səbəbi CFA-ya alternativ valyuta seçmək cəhdləri olub.

Lakin bunlar artıq keçmişdir. Fransaya qarşı etirazlar dalğası son illərdə daha da genişlənib. Bir neçə il bundan əvvəl Nigerdə Fransaya bağlı olan hökumət devrilib. Müstəmləkəçiliyə qarşı kəskin etirazlara Qabon, Yeni Kaledoniya və digər ölkələr də qoşulub. Fransanın keçmiş müstəmləkələri olan Seneqal, Niger, Burkina-Faso və Malidə Parisə qarşı etirazlar artır. Artıq proses kütləvi hal alıb və ayrı-arı müstəmləkə ölkələrində “Rədd ol, Fransa!” şüarları tez-tez təkrarlanır.

Fransa həmçinin Asiyadan da sıxışdırılır. Ərəb ölkələrinin çoxu uzun illərdir ki, əlaqələrdə üstünlüyü ABŞ, Böyük Britaniya, Çin və Türkiyəyə verirlər. Fransanın Livandakı əməlləri onun ərəb dünyasında da siyasətinin uğursuzluğunu təsdiqləyir. Vyetnam, Kamboca, Laos kimi keçmiş müstəmləkə əraziləri də Fransadan imtina ediblər. Bu ölkələr də ABŞ, Avstraliya, Çin və Yaponiya ilə əməkdaşlığa üstünlük verirlər.

Senatda və Milli Assambleyada “Reyunyon uşaqları” məsələsi ilə bağlı qanun layihəsinin böyük səs çoxluğu ilə qəbul edilməsi isə ona dəlalət edir ki, Yelisey Sarayının müstəmləkəçilk siyasətinə ölkə daxilində də etirazlar artır. Cəmiyyət bu siyasətin ölkənin nüfuzuna ciddi xələl gətirməsinin, demokratiya, insan hüquqları ilə bir araya sığmadığının fərqindədir və buna etirazını bildirir.



## Dünya tarixində görünməmiş cinayət - uşaq deportasiyası

Reyunonlu deputat Karin Löbonun müəllifi olduğu qanun layihəsi 1962-1984-cü illərdə Hind okeanındakı Reyunyon adasından zorla və ya müxtəlif inzibati üsullarla Fransanın materik hissəsinə köçürülmüş minlərlə azyaşlının xeyrinə təzminat və reabilitasiya tədbirlərini nəzərdə tutur. Bu addım Fransa dövlətinin tarixi ədalətsizliyə görə məsuliyyətini rəsmən tanıması kimi qiymətləndirilir.

Söhbət zamanında Yelisey Sarayının siyasi direktivləri əsasında gerçəkləşən bir insanlıq faciəsindən - körpə uşaqların valideynlərindən və vətənlərindən zorla ayrılmasından gedir. Tarixdə ayrı-ayrı xalqların yaşadıqları yerlərdən deportasiya edilməsi faktları məlumdur. Ancaq uşaqların ailələrdən alınaraq deportasiya edilməsi qiymətləndirilməsi mümkün olmayan cinayətdir ki, bunu da Fransa törədib. Dəhşətli hadisələr 1962-1984-cü illərdə baş verib. Həmin dövrdə Yelisey Sarayının təşəbbüsü ilə 2 015 nəfərdən çox azyaşlı Reyunyon adasından materik Fransanın 83 departamentinə, əsasən də əhalisi azalan kənd regionlarına köçürülüb. Ən çox uşaq qəbul edən departament Creuse olduğuna görə, bu azyaşlılar “Creuse uşaqları” adlandırılır. Yelisey Sarayının uşaq deportasiyasında məqsədi Reyunyondakı sürətli əhali artımının qarşısını almaq, eyni zamanda materik Fransada demoqrafik vəziyyəti süni şəkildə sağlamlaşdırmaq olub. Nəticədə, minlərlə uşaq son dərəcə kədərli tale yaşayıb. Ailələrindən alınan uşaqlar bir sıra hallarda fiziki və psixoloji zorakılıq, istismar və sosial təcrid faktları ilə üzləşiblər. Bəzi uşaqlar barəsində isə sonradan ümumiyyətlə heç bir məlumat verilməyib. “Reyunyon uşaqları” məsələsi özünü dünyaya sivil, demokratik dövlət kimi təqdim edən Fransada uşaq talelərinin məqsədli şəkildə qırılması cinayətidir. Hətta Fransanın dənizaşırı ərazilər naziri Naima Mutçu belə bu prosesi “sürgün, ailələrdən ayrılıq, doğma torpaqla, dillə və soy-köklə qəfil qopma nəticəsində alt-üst olmuş minlərlə həyat yolu” kimi xarakterizə edib. O, Fransanın tarixindəki “qaranlıq səhifələrə” toxunan bu qanunun qəbulunu “ədalət və ləyaqət mətni” kimi alqışlayıb. Reyunyonu təmsil edən sosialist parlamentari Odri Belim də ailələrindən qoparılmış uşaqların yaxınlarının vəziyyətini vurğulayaraq, onları “övladlarının qayıdışını boş yerə gözləyən valideynlər və susqunluq, anlaşılmazlıq, bəzən isə utanc hissi ilə əbədi iz buraxılmış ailələr” kimi səciyyələndirib.




## Fransa mənəvi məsuliyyətindən qurtula biləcəkmi?

Bəhs olunan qanuna əsasən dövlət tərəfindən maliyyələşdirilən xüsusi kompensasiya fondu yaradılacaq, zərərçəkmiş şəxslərə və bəzi hallarda onların varislərinə birdəfəlik təzminat ödəniləcək, hadisələrin araşdırılması və tarixi yaddaşın qorunması üçün xüsusi yaddaş komissiyası fəaliyyət göstərəcək. Hər il fevralın 18-i “Reyunyon uşaqlarının anım günü” kimi qeyd olunacaq, tarixi həqiqətlərin öyrənilməsi və gələcək nəsillərə çatdırılması məqsədilə memorial layihələr həyata keçiriləcək. Təzminatın konkret məbləği və ödəniş mexanizmləri hökumət tərəfindən qəbul ediləcək əlavə normativ sənədlərlə müəyyənləşdiriləcək. Bu qanun yalnız maddi kompensasiya məsələsi deyil, sənəd həm də Fransa dövlətinin müstəmləkə siyasətinin yaratdığı sosial və humanitar nəticələri gec də olsa etiraf etməsi baxımından mühüm siyasi və mənəvi addım hesab olunur. Parlamentdə çıxış edən deputatlar və senatorlar bu qərarı “ədalətin bərpasına doğru gecikmiş, lakin vacib addım” kimi xarakterizə ediblər.

Necə deyərlər, üzürü qəbahətindən betər. Qəbul olunan qanun, ödəniləcək təzminatlar öz yerində. Bəs Fransa “Reyunyon uşaqları” qarşısında mənəvi məsuliyyətindən qurtula biləcəkmi?

*Mübariz FEYİZLİ*

## Türkiyəyə gələn miqrantların sayı il ərzində azı 25 faiz artıb




2025-ci ildə Türkiyəyə gələn miqrantların sayı əvvəlki ilə nisbətən 25 faizdən çox (25,2 faiz) artaraq 393 829 nəfərə çatıb. Onların 91 952 nəfəri diaspordan olan Türkiyə vətəndaşları, 301 877 nəfəri isə əcnəbilər olub. AZƏRTAC bu barədə Türkiyə Statistika İnstitutunun (TÜİK) məlumatlarına istinadla xəbər verir.

Statistikaya görə, Türkiyəyə ən çox gələn əcnəbilər Türkmənistan vətəndaşları (23,4 faiz) olub. Onlardan sonra Azərbaycan (8,3 faiz), Özbəkistan (6,9 faiz), Misir (6,1 faiz) və Əfqanıstan (5,8 faiz) vətəndaşları gəlirlər. TÜİK, həmçinin əvvəllər Türkiyədə yaşamış və ölkəni tərk etmiş əcnəbilər haqqında statistikanı təqdim edib.

Siyahıda İraq vətəndaşları (5,7 faiz) birinci yerdədir. Digər miqrantlar arasında Əfqanıstan (11,2 faiz), Rusiya (7,6 faiz), İran (6,3 faiz) və Türkmənistan (5,7 faiz) vətəndaşları yer alıblar.

Türkiyə əyalətləri üzrə miqrantların bölgüsünün təhlili göstərir ki, 2025-ci ildə ən çox miqrantı İstanbul qəbul edib (42,2 faiz). Bunun ardınca Antalya (9,1 faiz), Ankara (6,7 faiz), İzmir (3,1 faiz) və Bursa (2,9 faiz) gəlir.

## BƏƏ-nin neft ixracı müharibədən əvvəlki səviyyənin 85 faizinə çatıb

İyunun əvvəlində Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) xam neft ixracı müharibədən əvvəlki səviyyənin təxminən 85 faizinə çatıb. Bu barədə Beynəlxalq Enerji Agentliyinin (IEA) məlumatında deyilir. Məlumata görə, BƏƏ-nin gündəlik neft ixracı iyunun əvvəlində 4,3 milyon barelə yüksəlib. Bu rəqəm müharibənin başlamasından qısa müddət sonra mart ayında müşahidə olunan 1,9 milyon barellə müqayisədə güclü bir bərpa deməkdir.



Birləşmiş Ərəb Əmirlikləri bu artımı Hörmüz boğazının xaricindəki “Fuceyra” limanına çatan boru kəmərindən və limanın yaxınlığındakı 42 milyon barel tutumlu “Mandus” yeraltı anbarından istifadə etməsi, eləcə də Hörmüz boğazından keçən yük daşımalarının artması ilə əlaqələndirib.

IEA, həmçinin BƏƏ-nin bəzi tankerlərin aşkarlanmamaq üçün siqnal cihazlarını söndürməsi nəticəsində Hörmüz boğazından ixracını artırdığını bildirib.

# Çində "Yay Davos"u ...

## Budəfəki toplantı "Miqyaslı İnnovasiya" mövzusuna həsr olunub




Çin Xalq Respublikasının Dalyan şəhərində Dünya İqtisadi Forumunun "Yeni liderlər" sammiti keçirilib. "Yay Davosu" adlandırılan iclasda 90-dan çox ölkədən 1700-ə yaxın nümayəndə, o cümlədən hökumət rəsmiləri, regional təşkilatların və qlobal şirkətlərin rəhbərləri, vətəndaş cəmiyyətinin təmsilçiləri iştirak ediblər. Tədbir "Miqyaslı İnnovasiya" mövzusuna həsr olunub. Qlobal toplantıda innovasiyanın texnoloji uçurumları necə aradan qaldıra biləcəyi, ticarət maneələrini necə aşacağı və real məhsuldarlığa necə çevrilə biləcəyinə dair müzakirələr aparılıb.

**5 əsas hədəf...**

Qeyd edək ki, illik görüş zamanı dərin mübadilələr müxtəlif ölkələrdən olan müəssisələrə Çin bazarındakı imkanlardan istifadə etməyə və Çinin nailiyyətlərinin qlobal səviyyədə yayılmasının təşviqinə kömək edir. "Yay Davosu"nun gündəliyi həm praktik, həm də gələcəyə yönəlmiş olmaqla 5 əsas mövzuya hədəflənib: ticarətin strukturunun dəyişməsi, Çinin növbəti fəsli, real iqtisadiyyatda texnologiya, gələcək nəsil üçün iş yerləri və rəqabət mənbəyi kimi enerji keçidi. Bu mövzular aydın məqsəd hissini qlobal perspektivlə birləşdirərək, bugünkü qlobal iqtisadi inkişafdakı ən aktual çətinliklərə və prioritetlərə birbaşa toxunur.

Vurğulandığı kimi, müzakirələr qlobal ticarətdəki dəyişikliklərin nəticələri, Çin iqtisadiyyatı üçün perspektivlər, süni intellektin və digər yeni texnologiyaların real sektorda tətbiqi, yeni nəsil iş yerlərinin yaradılması, enerji keçidi və milli iqtisadiyyatların rəqabət qabiliyyəti mövzularına yönəldilib. Proqramın konkret mövzularına qlobal təchizat zəncirlərinin gələcəyi, ABŞ-Çin münasibətləri, dəyişən qlobal nizamda ASEAN və APEC-in rolu və yüksək texnologiyalı sənaye sahələrinin inkişafı daxil olub.

**"2026-cı il üçün ən yaxşı 10 inkişaf etməkdə olan texnologiya"**

Forumun ilk diqqətəlayiq hadisələrindən biri Dünya İqtisadi Forumu tərəfindən elmi nəşriyyat olan "Frontiers" ilə birgə hazırlanmış "2026-cı il üçün ən yaxşı 10 inkişaf etməkdə olan texnologiya" adlı illik hesabatın dərc olunması oldu. Tədqiqat müəllifləri belə bir nəticəyə gəldilər ki, proqram təminatına əsaslanan süni intellektdə bir neçə illik sürətli inkişafdan sonra texnoloji dəyişikliyin diqqəti tədricən rəqəmsal sahədən müasir iqtisadiyyatın əsasını təşkil edən fiziki sistemlərə - enerji, tibb, qida istehsalı və yeni materiallara keçir. Ən perspektivli inkişafların siyahısına elektrik nəqliyyat vasitələrinin və binaların yalnız elektrik enerjisi istehlak etməməsinə, həm də onu şəbəkəyə qaytarmasına imkan verən "hər şeydən şəbəkəyə" texnologiyaları daxil idi.

Müzakirələrdə tibbi və biotexnoloji inkişaflar da diqqət mərkəzində yer alıb. Bunlara qida maddələri və dərmanların istehsalı üçün dəqiq fermentasiya texnologiyaları, fərdiləşdirilmiş mRNT xərçəng peyvəndləri və yeni dərmanların kəşf edilməsi üçün kvant modelləşdirməsində istifadə daxildir.

Müəlliflər həmçinin süni intellekt sistemlərinin real dünya hadisələrinin inkişafını simulyasiya etməsinə və proqnozlaşdırmasına imkan verən sözdə "dünya modelləri" texnologiyalarını, eləcə də gələcək kvant kompüterlərindən məlumatları qorumaq üçün ən perspektivli metodlardan biri hesab edilən qəfəs əsaslı kriptoqrafiyanı önə sürüblər.

**Qlobal qeyri-müəyyənlik fonunda görüş**

Xarici mətbuat yazır ki, forum qlobal iqtisadiyyatda davam edən qeyri-müəyyənlik fonunda keçirilib. Təşkilatçılar Yaxın Şərqdəki münaqişələrin enerji bazarlarına təsirini, qlobal ticarətin yavaşlamasını, artan inflyasiya risklərini və qlobal istehsal və təchizat zəncirlərinin davam edən yenidən qurulmasını qeyd ediblər. Xatırladaq ki, "Yay Davosu" 2007-ci ildən Çinin Dalyan və Tianjin şəhərləri arasında növbəli prinsiplə keçirilir. İsveçrənin Davos şəhərində keçirilən ənənəvi Dünya İqtisadi Forumundan fərqli olaraq Çində keçirilən görüşlər innovasiya, yeni texnologiyalar, sahibkarlıq və inkişaf etməkdə olan bazarların perspektivlərinə yönəlib.

Adına baxmayaraq, forum Dünya İqtisadi Forumunun əsas platformalarından biri hesab olunur və hər il böyük şirkətlərin rəhbərlərini, siyasətçiləri, iqtisadçıları, akademikləri və beynəlxalq təşkilatların nümayəndələrini cəlb edir. Bir çox iştirakçı üçün bu, Asiyada biznes əhval-ruhiyyəsinin vacib göstəricisi kimi xidmət edir və onlara Çinin inkişaf etməkdə olan qlobal iqtisadi sistemdəki rolunu qiymətləndirməyə imkan verir.

**İnkişafın Çin prinsipi...**

Beynəlxalq ekspertlər bildirirlər ki, forumda əsas diqqətçəkən məqam 15-ci Beşillik Planın başlaması ilə Çinin növbəti mərhələdə inkişaf trayektoriyası məsələsi idi. Zəif qlobal iqtisadi bərpa, geosiyasi gərginlik və ticarət zəncirlərinin restrukturizasiyası fonunda bu diqqət beynəlxalq ictimaiyyətin Çinin iqtisadi artım modelinin necə dəyişdiyinə olan davamlı marağını əks etdirir. Son iki onillikdə xarici dünya Çin iqtisadiyyatını əsasən onun artım tempi ilə qiymətləndirib. Buna əsas nümunə yeni enerji nəqliyyat vasitələri (NEV) sektorudur. Hazırda Çin dünyanın ən böyük elektrik nəqliyyat vasitələri istehsalçısı və istehlakçısına çevrilib. Yeni sənaye




prinsipi özündə böyük bir daxili bazar tərəfindən sınaqdan keçirilmiş batareya istehsalından tutmuş, hazır nəqliyyat vasitələrinə, muxtar idarəetmə sistemlərinə və şarj infrastrukturuna qədər geniş ticarət zənciri formalaşdırıb. Çinin NEV sektorunun rəqabət qabiliyyəti təcrid olunmuş texnoloji irəliləyişlərlə deyil, texnologiyaların kütləvi tətbiqi yolu ilə xərclərin azaldılmasını təmin edən davamlı inkişaf və miqyas iqtisadiyyatı ilə müəyyən edilir.

Paralel olaraq süni intellekt sektoru da bu mənada diqqəti cəlb edir. Bu sektor fərqli bir mərhələdədir. Yeni enerji nəqliyyat vasitələri sektorundan fərqli olaraq, burada sürətli texnoloji irəliləyişlər üstünlük təşkil edir. Bu dəyişikliklər isə təkcə ayrı-ayrı sənaye sahələri səviyyəsində deyil, həm də məkan baxımından, şəhərlər və bölgələr səviyyəsində getdikcə daha aydın görünür. "Yay Davosu"na ev sahibliyi edən Dalyan buna bariz nümunədir. Bildirilir ki, Çinin şimal-şərqindəki ən böyük liman və sənaye mərkəzlərindən biri olan Dalyan həm neft-kimya, maşınqayırma və digər ənənəvi sənaye sahələrini, həm də rəqəmsal iqtisadiyyatı, yüksək texnologiyalı istehsalı və dəniz texnologiyalarını inkişaf etdirməklə yeni artım mənbələri yaratmağa çalışır. Əsas diqqət isə yeni texnologiyaların mövcud sənaye bazasına inteqrasiyasıdır. Vurğulanır ki, istər sənaye səviyyəsində, istərsə də şəhərsalma strategiyalarında innovasiyanın miqyaslandırılması xarici dünyaya yüksək dərəcədə açıqlıq olmadan mümkün deyil. Məhz buna görə də bu mövzu "Yay Davosu"nun gündəliyində mərkəzi yerlərdən birini tutub.

***SADİQ***

# Almaniya F126 freqatlarının inşası layihəsini dayandırır




Almaniyanın müdafiə naziri Boris Pistorius Hərbi Dəniz Qüvvələri üçün nəzərdə tutulan F126 tipli freqatların inşası layihəsini dayandırmağı planlaşdırır. Bu barədə "Spiegel" jurnalı məlumat yayıb. Xəbərə görə, nazirlik Almaniya Hərbi Dəniz Qüvvələrinin tarixində ən iri silahlanma proqramlarından hesab olunan layihəni davam etdirmək niyyətində deyil. Altı hərbi gəminin inşası əvvəlcə Niderlandın "Damen Naval" gəmiqayırma şirkətinə həvalə olunmuşdu. Lakin layihədə ciddi gecikmələr və müqavilənin ləğvi riskləri səbəbindən baş podratçı funksiyasının Almaniyanın "Rheinmetall" şirkətinə verilməsi nəzərdə tutulurdu.

Məlumata əsasən, "Rheinmetall" freqatların tikintisini təxminən 13 milyard avroya başa çatdırmağı təklif edib. 2020-ci ildə başladılan layihəyə indiyədək 2 milyard avrodan çox vəsait xərclənib.

Bununla belə, Boris Pistoriusun layihədən imtina variantını nəzərdən keçirdiyi bildirilir. Məlumata görə, müdafiə naziri alternativ olaraq Almaniyanın TKMS şirkətinin istehsalı olan Meko-200 tipli freqatların Bundesver üçün alınmasını planlaşdırır. Nəşr bu yanaşmanın Hərbi Dəniz Qüvvələrinin rəhbərliyi tərəfindən də dəstəkləndiyini bildirib.

# QƏRBİ AZƏRBAYCANIN İLK PEDAQOQ QADINI TƏRLAN XANIM SULTANOVA

Qərbi Azərbaycanda milli maarifçilik mühitinin formalasmasında, neçə-neçə nəsillərin tərbiyəsində böyük rol oynamış ilk azərbaycanlı qadın pedaqoq Tərlan xanım Məhəmmədəli qızı Sultanova olmusdur. Tərlan xanım Sultanova 1881-ci ildə İrəvan quberniyasının Üçmüədzin qəzasının Əkərək kəndində anadan olmusdur. İrəvanda çox məşhur nəsillərin nümayəndələrindən biri Tərlan xanım Məhəmmədəli qızı Sultanova (ilk soyadı Muğanlinski) olub.



Atası Məhəmmədəli bəy Sultanov (Muğanlinski) Sankt-Peterburq Hərbi Tibb Akademiyasını bitirdikdən sonra bir müddət Üçmüədzin qəzasında həkim işləmişdi. Tərlan xanımın anası isə məşhur Topçubaşovlar nəslindən idi. Bu nəsillər Azərbaycan elminə, mədəniyyətinə xeyli sayda alim, ziyalı və ictimai xadimlər bəxş etmişdir.

Tərlan xanım ilk təhsilini İrəvanın tanınmış maarif xadimlərindən olan qardaşı İsfəndiyar bəydən almış, sonra isə İrəvan qızlar gimnaziyasını bitirmişdir. Bu, ömrünü xalqın maariflənməsinə həsr etmiş Tərlan xanımın həyatında yeni mərhələnin başlanğıcı olur. O gimnaziyada oxuduğu dövrdə rus və fransız dillərinə mükəmməl yiyələnir. Bu, həm də onun maarifçi missiyasını həyata keçirmək üçün bir fürsətə çevrilir. Tərlan xanımın taleyi, həyatı gimnaziya təhsilindən sonra nəinki İrəvanla, bütövlükdə Azərbaycan təhsili ilə bağlı olub. O İrəvanda gənc azərbaycanlı xanımların təhsili uğrunda mübarizənin ən güclü simalarından biri olmuşdur. 1913-cü ildə isə İrəvanda qızlar üçün açılmış ikinci rus-tatar (türk) məktəbi təşkil edilir və Tərlan xanım 1918-ci ilə kimi həmin rus-tatar (türk) qızlar məktəbinin müdiri vəzifəsində çalışır. Tərlan xanım bu məktəbin inkişafında xüsusi rol oynamışdır. O, maarifçilik ideyaları uğrunda mübarizədə qarşısına çıxan bütün çətinliklərə mərdliklə sinə gərmişdi. Həmin rus-tatar (türk) qızlar məktəbində tədris olunan fənlərdən başqa şagirdlərə tikmə, toxuma və sair əl işləri də öyrədilirdi. Məktəbdə şagirdlərin əl işlərinə nəzarəti ayrıca, ştatda olan pedaqoji rəhbərlik həyata keçirirdi. Tərlan xanım qızlar məktəbində Azərbaycan dilini tədris etməklə yanaşı həm də şagirdlərin əl işlərinə rəhbərlik etmişdir. Onun təşəbbüsü və səyi sayəsində İrəvan quberniyasının bir çox yerlərindən onlarla azərbaycanlı qızları təhsilə cəlb edilmişdir. Tərlan xanım azərbaycanlı balalarının təhsilə cəlb edilməsi və maariflənməsi üçün böyük zəhmət və əmək sərf etmişdir. Onun rəhbərlik etdiyi bu məktəbdə təhsil almış bir çox azərbaycanlı qızlar - Zəhra Ağayeva, Fatma Əliyeva, Darçın İsmixanova, Əfşan Qazıyeva, Laçın Qazıyeva, Nuşu Əliyeva, Dilgüşad Əliyeva, Rübabə Muxtarova, Rübabə Tağıyeva, Münəvvər Qədimbəyova, Sona Mirzə bəy qızı Mirzəbəyova (Qocayeva) və başqaları sonralar İrəvanda qadın hərəkatının öncüllərindən olmuş və regionda Türk qadınlarının təhsilinin inkişafında mühüm rol oynamışdılar. Böyük zəhmət, min bir əziyyət hesabına yaradılan bütün azərbaycanlı məktəbləri kimi, həmin məktəbin də fəaliyyəti 1918-ci ildə ermənilərin azərbaycanlılara qarşı törətdikləri total qırğınlar zamanı dayandırıldı. 1918-ci ildə Sultanovlar ailəsi də ermənilərin vəhşi qırğınlarından - qoddar ölümdən xilas olmaq üçün Bakı şəhərinə köçməyə məcbur olmusdu. Lakin Bakıda yaşadığı illərdə də maarif cəbhəsini tərk etməmiş, Ceyran xanım Bayramova, Xavər xanım Şabanova kimi tərəqqipərvər qadınlarla birlikdə azərbaycanlı qızların savadlanması üçün çox iş görmüşdür.

1923-cü ildə Tərlan xanımın qardaşı Əziz bəy "xalq düşməni" kimi güllələndiyinə görə o, böyük sarsıntı keçirir və səhhətində ciddi problemlər yaranır. Sonralar, 1937-ci ildə Tərlan xanımın qardaşı İsfəndiyar bəy də həyat yoldaşı ilə birlikdə Qazaxıstana sürgün edilmiş və 1946-cı ildə orada vəfat etmişdir. Tərlan xanımın həyatı əziyyətlərlə, sınaqlarla keçib. Amma buna baxmayaraq, o, öz amalından dönməyib. Bu ağır sarsıntılardan sonra həkimlərin məsləhətilə Tərlan xanım 1923-cü ildə qardaşı İsfəndiyar bəylə birlikdə Şimali Osetiya - Vladiqafqaza köçür. O vaxt şəhərdəki rus-tatar məktəbinin direktoru Baxşı Köçərlinski Tərlan xanımla görüşür, onu məktəbdə işləməyə dəvət edir. Tərlan xanım bu təklifi ürəkdən bəyənir və böyük həvəslə razılıq verir. İki ildən sonra Tərlan xanımın şəxsi təşəbbüsü ilə şəhərdə sırf azərbaycanlı məktəbi təşkil edilir. Altı il burada işlədikdən sonra Tərlan xanım yenidən Bakıya qayıdır. 1930-cu ildə Bakı şəhərinə köçən Tərlan xanım buradakı 132 nömrəli məktəbdə müəllim və direktor müavini kimi çalışır. Tərlan xanım sonralar Bakı şəhərindəki 160 nömrəli məktəbdə fasiləsiz olaraq 25 il - ömrünün sonuna kimi müəllimlik edir. Səmərəli pedaqoji fəaliyyətinə və bu sahədəki xidmətlərinə görə Tərlan xanım Azərbaycanın Əməkdar müəllimi fəxri adına layiq görülmüş və "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif edilmişdir. Tərlan xanımın qızı Fəridə Sultanzadə uzun müddət M.F.Axundov adına Rus dili və Ədəbiyyatı İnstitutunun rektoru olmuşdur.

Azərbaycanlı xanımların maariflənməsi, cəmiyyətdə layiqli yer qazanmaları üçün Tərlan xanımın xidmətləri danılmazdır. Təhsil tariximizdə adı ehtiramla yad edilən ziyalılardan biri olan Tərlan xanım 1969-cu ildə Bakı şəhərində vəfat etmişdir.



***Cəlal Zəngi,***
***filologiya üzrə fəlsəfə doktoru, dosent***

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**




# Mavi suların qəhrəmanları!



## 25 iyun Dünya Dənizçilər Günüdür

Dənizçilər tarix boyu ən cəsarətli və dözümlü peşə sahiblərindən biri hesab olunublar. Günlərlə, həftələrlə, bəlkə də aylarla su yolçuluğu edən bu peşə sahibləri bəzən su kimi sakit, bəzən dəniz kimi coşqunluqları ilə seçilirlər. Bu sahənin vacibliyini nəzərə alan İMO (Beynəlxalq Dəniz Təşkilatı) 2011-ci ildən başlayaraq hər il 25 iyun tarixinin Dünya Dənizçilər Günü kimi qeyd olunması təklifini irəli sürüb.

Mavi suların yolçuları dünya iqtisadiyyatının inkişafında da böyük rol oynayırlar. Belə ki, dünya ticarətinin təxminən 90 faizi dəniz vasitəsilə həyata keçirilir. Yəni geyimimizdən tutmuş, məişətdə istifadə etdiyimiz elektron əşyalara, hətta çörəyin hazırlanması üçün lazım olan taxıla qədər demək olar ki, əksər zəruri tələbat malları ünvanlarına gəmilərlə daşınır. Təbii ki, təlatümlü dənizləri, okeanları aşan gəmiləri idarə edən dənizçilər bu mənada böyük zəhmət çəkərək, vacib bir missiyanı yerinə yetirirlər.

**Xəzərin sahilində formalaşan dənizçilik mədəniyyəti**

Azərbaycan qədim dövrlərdən etibarən Xəzər dənizinin sahilində yerləşməsi səbəbindən dənizçilik ənənələrinin formalaşdığı mühüm məkanlardan biri olub. Burada yaşayan insanlar həm ticarət əlaqələrinin genişləndirilməsi, həm də balıqçılıq və yük daşımalarının həyata keçirilməsi məqsədilə müxtəlif növ qayıq və gəmilərdən istifadə edərək dənizlə sıx bağlı həyat sürüblər. Tarixi mənbələr göstərir ki, Azərbaycan ərazisində dənizçilik fəaliyyətinin kökləri çox qədim dövrlərə gedib çıxır. Xəzər dənizi boyunca yerləşən yaşayış məntəqələri arasında ticarət əlaqələrinin inkişafı nəticəsində yerli əhali dəniz yollarından səmərəli şəkildə istifadə etməyi bacarıb. Bu isə regionun iqtisadi və mədəni inkişafına mühüm təsir göstərib.

XIX əsrin ikinci yarısında Bakıda neft sənayesinin sürətlə inkişaf etməsi ilə dəniz nəqliyyatına olan tələbat daha da artıb. Neft və neft məhsullarının daşınması üçün xüsusi gəmilər istifadəyə verilib və nəticədə Azərbaycan Xəzər hövzəsinin əsas gəmiçilik mərkəzlərindən birinə çevrilib. Xüsusilə, Bakı limanının fəaliyyəti region ölkələri arasında iqtisadi əlaqələrin möhkəmlənməsində mühüm rol oynayıb. Müxtəlif istiqamətlərə hərəkət edən yük və sərnişin gəmiləri vasitəsilə Azərbaycan beynəlxalq ticarət marşrutlarının vacib iştirakçılarından biri olub.

Sovet dövründə Azərbaycan gəmiçiliyi daha da inkişaf etdirilib, yeni gəmiqayırma və gəmitəmir müəssisələri yaradılıb, peşəkar dənizçi kadrlarının hazırlanmasına xüsusi diqqət yetirilib. Beləliklə, ölkənin dənizçilik sahəsi Xəzər dənizinin ən güclü nəqliyyat sistemlərindən birinə çevrilib.

**Dənizçilərimizin əməyi yüksək qiymətləndirilir**

Müstəqillik illərində Azərbaycanın dənizçilik sektoru müasir texnologiyalarla təchiz olunub, beynəlxalq standartlara uyğun fəaliyyət göstərən gəmiçilik şirkətləri formalaşıb. Ölkənin tranzit imkanlarının genişlənməsi ilə əlaqədar olaraq Xəzər dənizi üzərindən həyata keçirilən yükdaşımaların həcmi əhəmiyyətli dərəcədə artıb.

Bu gün Azərbaycan dənizçilik sahəsində zəngin tarixi irsini müasir inkişafla birləşdirərək regionun mühüm nəqliyyat və logistika mərkəzlərindən biri kimi fəaliyyət göstərir. Azərbaycan dənizçiləri isə yüzilliklər boyu formalaşmış peşə ənənələrini yaşadaraq ölkənin iqtisadi inkişafında və beynəlxalq əlaqələrinin genişlənməsində mühüm rol oynamağa davam edirlər.

Ölkəmizdə dənizçilik tarixi yalnız gəmilər və limanlarla məhdudlaşmır, eyni zamanda xalqımızın zəhmətkeşliyini, cəsarətini və yeniliklərə açıq olmasını əks etdirən mühüm bir irs kimi bu gün də gələcək nəsillərə örnək olmağa davam edir.

Hazırda da ölkəmizdə dənizçilik sahəsinin inkişafı dövlət siyasətinin mühüm istiqamətlərindən biridir. Bu sahədə çalışan insanların sosial rifahının yüksəldilməsi, peşə nüfuzunun artırılması və dəniz nəqliyyatı infrastrukturunun müasirləşdirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. “Dənizçi Günü” ölkəmizdə də qeyd olunur. 2014-cü il iyunun 19-da Prezident İlham Əliyevin Sərəncamı ilə ölkədə - “Dənizçi günü” peşə bayramı təsis olunub. Ölkə başçısı müxtəlif çıxışlarında Azərbaycan dənizçilərinin ölkə iqtisadiyyatının inkişafında mühüm rol oynadığını vurğulayıb, onların əməyi yüksək qiymətləndirilib.

Bundan başqa, Prezidentin müxtəlif sərəncamları ilə Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin (ASCO) kapitanları, mexanikləri və liman işçiləri orden və medallarla təltif olunub. Onların bir çoxu isə nəqliyyat sektorunun inkişafında xidmətlərinə görə “Əməkdar nəqliyyat işçisi” kimi fəxri ada layiq görülüb.

*Yeganə BAYRAMOVA*



# Onun üçün əsas meyar istedad idi...

## Həsən Seyidbəylinin vəfatından 46 il ötür

Bu gün Azərbaycan kino və ədəbiyyat tarixində silinməz izlər qoymuş Xalq artisti, rejissor Həsən Seyidbəylinin vəfatından 46 il ötür. H.Seyidbəyli təkcə rejissor deyil, həm də öz əsərləri ilə bütöv bir dövrün mənəvi yaddaşını formalaşdıran sənətkar idi. Dünyasını dəyişsə də, onun yaratdığı obrazlar, yazdığı ssenarilər və ekranlaşdırdığı hekayələr bu gün də tamaşaçıların və oxucuların qəlbində yaşayır.

Həsən Seyidbəyli milli Azərbaycan kinosunun inkişafında xüsusi yeri olan, öz adını uğurlu filmləri ilə kino salnaməsinə qızıl hərflərlə yazdıran sənətkarlardan idi. O, Azərbaycan Kinematoqrafçılar İttifaqı İdarə heyətinin I katibi sədri vəzifəsində çalışıb. Filmləri Ümumittifaq Kino festivallarında mükafat və diplomlara layiq görülüb.

“İmtahan”, “Qızıl axtaranlar”, “Bağlı qapılar” adlı dram əsərləri Azərbaycanda və xaricdə səhnəyə qoyulub. “Telefonçu qız” povesti, “Cəbhədən-cəbhəyə”, “Tərsanə”, “Çiçək”, romanları, “Dəniz cəsurları sevir”, “Sən nə üçün susursan” (Hər ikisi İ.Qasımovla birgə) pyeslərinin, “Uzaq sahillərdə” (İ.Qasımovla birgə) əsərinin müəllifidir. “Bizim Cəbiş müəllim”, “Nəsimi”, “Qızmar günəş altında”, “ O, qızı tapın”, “Yolda əhvalat”, “Uzaq sahillərdə” (İ.Qasımovla birlikdə) və neçə-neçə gözəl filmlərin rejissoru və ssenari müəllifidir.

**İstedada güvənən rejissor...**

Həsən Seyidbəyli öz filmlərində tanınmayan, amma istedadlı insanları çəkməyə üstünlük verirdi. “Nəsimi” filmi buna sübutdur. Həmin filmdə baş rol üçün namizədlərin sayı çox olub. Lakin Həsən Seyidbəylinin inadı və həssas duyumu yalnız Rasim Balayevə yönəlib. Gənc bir tələbənin belə bir tarixi şəxsiyyətin, böyük şairin obrazını məharətlə yaradacağına inanan Həsən Seyidbəyli həqiqətən də yanılmayıb. Uzaqgörən insan olan sənətkar işinə də, sənətinə də məsuliyyətlə yanaşıb. Onun üçün əsas meyar istedad olub.



**Həsən Seyidbəyli yazıçı və publisist kimi...**

Həsən Seyidbəyli həm də peşəkar publisist idi. İctimai-siyasi xadim kimi diqqət mərkəzində olan bu şəxsiyyət tez-tez xarici ölkələrdə müxtəlif səfərlərdə olub. Hər səfərdən qayıdışı isə mətbuat səhifələrində oçerk, təəssürat, yol qeydləri kimi öz əksini tapıb. Müəllifin bu sahədəki xidmətləri təqdirəlayiqdir. “İlk tanışlıq”, “On beş gün Yaponiyada”, “Yuqoslaviya xatirələri”, “İyirmi gün Amerikada”, “Gördüyüm yerlər” adlı publisistik kitablarda məhz səfər təəssüratlarından bəhs edilib.

Həm kinorejissor, həm də yazıçı kimi mükəmməl yaradıcılığa malik olan Həsən Seyidbəyli bir neçə çağırış Azərbaycan Ali Sovetinin və Bakı Sovetinin deputatı kimi də fəaliyyət göstərib. Filmləri Ümumittifaq Kino festivallarında priz və diplomlara layiq görülüb. Azərbaycan Kinematoqrafçılar İttifaqının katibi və sədri vəzifəsində işləmiş Həsən Seyidbəylinin yaradıcı əməyi həmişə qiymətləndirilib. O, “Şərəf nişanı”, “Qırmızı əmək bayrağı” orden və medalları ilə təltif edilib.

**Yaradıcılığında davam edən ömür**

Rejissorun ölümü çox ani baş verib. Otuz saniyənin içində dünyasını dəyişib. Naharını edəndən sonra qəfildən halı pisləşib. Həyat yoldaşı ona iynə vursa da, vəziyyəti düzəlməyib. 1980-ci il iyunun 25-də vəfat edən Həsən Seyidbəylinin 59 yaşı vardı. Onun həyat yolu göstərir ki, həqiqi sənətkarın ömrü təqvimlə ölçülmür, çünki zaman keçdikcə bir çox adlar unudulur, lakin xalqın yaddaşında yaşayan sənət adamları hər yeni nəsillə yenidən doğulur, yenidən kəşf olunur və yenidən sevilir. Həsən Seyidbəyli də məhz belə sənətkarlardandır. Ömrünü başa vursa da, yaratdığı irs hələ uzun illər Azərbaycan mədəniyyətinin qızıl fondunun ayrılmaz hissəsi olaraq qalacaq.

*Yeganə BAYRAMOVA*





## Braziliyalı döyüşçü: Azarkeşlər maraqlı və gərgin qarşılaşma izləyəcəklər

Nazim Sadıqovla qarşılaşmaya tam hazır vəziyyətdəyəm. AZƏRTAC xəbər verir ki, bu sözləri Bakıda keçiriləcək UFC turnirində iştirak edəcək braziliyalı döyüşçü Mateus Kamilo mətbuat konfransında deyib.

O, Azərbaycan təmsilçisi Nazim Sadıxovla maraqlı döyüşün alınacağına inandığını bildirib:

“Azarkeşlər Nazimlə aramızda çox maraqlı və gərgin qarşılaşma izləyəcəklər. Qələbə qazansam, bunu mənə dəstək olan hər kəsə həsr edəcəyəm. İdmançılar döyüşə yaxşı hazırlaşanda özlərini daha sakit və inamlı hiss edirlər. Məqsədim Nazimə nokautla qalib gəlməkdir”.

Qeyd edək ki, UFC turniri iyunun 27-də Bakıda, Milli Gimnastika Arenasında keçiriləcək. Mateus Kamilo həmin gecədə Azərbaycan təmsilçisi Nazim Sadıqovla üz-üzə gələcək.

## Fərman Həsənov: Azərbaycan bayrağını yüksəltmək böyük qürurdur



Azərbaycanda UFC turnirinin keçirilməsi böyük hadisədir. AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan döyüşçüsü Fərman Həsənov Bakıda keçiriləcək UFC turniri ərəfəsində təşkil olunan mətbuat konfransında deyib.

İdmançı qarşıdakı döyüşə tam hazır olduğunu vurğulayıb: “Özümü çox yaxşı hiss edirəm. Üzərimdə heç bir təzyiq yoxdur. Rəqibim Erik Nolan təcrübəli və güclü döyüşçüdür. O, daha çox ayaqüstə döyüşə üstünlük verir. Onu yaxşı tanıyıram və qarşılaşmaya ciddi hazırlaşmışam. Öz ölkəmdə Azərbaycan bayrağını yüksəltmək mənim üçün böyük qürur mənbəyi olacaq”.

Fərman Həsənov UFC turnirinin Azərbaycanda böyük maraq doğuracağına inandığını da bildirib: “Futbolu çox izləyən biri deyiləm. Amma düşünürəm ki, UFC turniri azarkeşlər üçün daha maraqlı olacaq”.

Qeyd edək ki, UFC turniri iyunun 27-də Bakıdakı Milli Gimnastika Arenasında keçiriləcək. Gecənin əsas döyüşündə yüngül çəkidə çıxış edən Azərbaycan təmsilçisi Rafael Fiziev meksikalı Manuel Torres ilə üz-üzə gələcək. Fərman Həsənov isə amerikalı Erik Nolan ilə qarşılaşacaq.

## Xankəndidə yeni cüdo zalı istifadəyə verilib



Xankəndi şəhərində yerləşən Nizami Gəncəvi adına 4 nömrəli tam orta məktəbdə yeni cüdo zalı fəaliyyətə başlayıb.

Azərbaycan Cüdo Federasiyasından (ACF) AZƏRTAC-a bildirilib ki, federasiya tərəfindən müasir standartlara uyğun tatamilər və zəruri avadanlıqlarla təchiz olunan zalda paltardəyişmə otaqları və digər köməkçi sahələr yaradılıb. Burada 100-dən çox idmançının cüdo ilə məşğul olması üçün əlverişli şərait formalaşdırılıb.

Qeyd edək ki, 2022-2026-cı illər ərzində Gəncə, Sumqayıt, Qusar, Ağstafa, Zaqatala, Goranboy, Sabirabad, Zirə, Ağdaş, Kürdəmir, Astara, Cəlilabad, Tərtər, Qax, İmişli, Şabran, Daşkəsən və Yevlax da daxil olmaqla ölkənin müxtəlif şəhər və rayonlarında yeni cüdo zalları istifadəyə verilib. Bununla yanaşı, Bakı və regionlardakı 202 idman zalına ümumilikdə 14 min 300 tatami paylanılıb.

## Peşəkar Futbol Liqası klublara ödəmələr edib

Peşəkar Futbol Liqası (PFL) Azərbaycan futbolunda ilk dəfə tətbiq olunan yeni təşviq mexanizmi çərçivəsində Premyer Liqa klublarına ödənişləri həyata keçirib.

PFL-dən AZƏRTAC-a bildirilib ki, AFFA İcraiyyə Komitəsinin qərarına əsasən, Misli Premyer Liqasında çıxış edən klubların sifariş vərəqəsində yer alan legioner futbolçular üzrə ödənilən rüsumlar hesabına formalaşan bonus fondu klublar arasında bölüşdürülüb. Bölgü yerli futbolçuların mövsüm ərzində meydanda keçirdikləri dəqiqələr əsasında aparılıb.

Mövsüm ərzində PFL tərəfindən müvafiq hesablamalar aparılıb, göstəricilər təhlil olunub və yekun nəticələr AFFA İcraiyyə Komitəsinin təsdiq etdiyi meyarlara uyğun müəyyənləşdirilib.

İcraiyyə Komitəsinin qərarına əsasən, bonus fondunun minimum həcmi 1 milyon manat nəzərdə tutulsa da, PFL tərəfindən klubların hesabına ümumilikdə 2 milyon 610 min manat köçürülüb.

Yekun bölgüdə ilk pillədə “Qəbələ” klubu qərarlaşıb. Daha əvvəl elan olunduğu kimi, klub hesablanmış məbləğə əlavə olaraq 50 min manat həcmində xüsusi bonus da əldə edib.

Klublara köçürülən vəsaitlərin məbləği, eləcə də bölgünün detalları müvafiq cədvəldə əks olunub.

Bildirilib ki, ilk dəfə tətbiq edilən bu təşviq mexanizminin klubların maliyyə dayanıqlığının gücləndirilməsinə, növbəti mövsüm üçün büdcələrinin formalaşdırılmasına, yerli futbolçuların inkişafının stimullaşdırılmasına və Azərbaycan futbolunun davamlı inkişafına töhfə verəcəyi gözlənilir.


Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 5348
Sifariş: 817
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova